YENİ MÜSAVAT
N 171 (7341) 20 avqust 2019

# "Mehriban xanımın şəhid ailələrinə, döyüşçülərə münasibəti çox fərqlidir"

## Rey Kərimoğlu: "Həm prezident İlham Əliyev, həm də Mehriban Əliyevanın bu xüsusda yanaşması təqdirəlayiqdir"

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ali Hərbi Məktəbin bir qrup məzunu ilə şəhidlərin əziz xatirəsini yad edib.**



Bu barədə məlumat Mehriban Əliyevanın İnstaqram səhifəsində yer alıb:

"Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin bir qrup məzunu ilə Vətənimiz naminə, Azərbaycan torpaqlarının işğalçılardan azad edilməsi naminə həyatından keçən şəhidlərin işıqlı xatirəsini yad etdim. Bu insanların qəhrəmanlığı qarşısında baş əyirəm. Azərbaycanın layiqli övladları, əsgər və zabitləri ilə fəxr edirəm. Onların şücaəti, onların adları Azərbaycan tarixinə və Azərbaycan xalqının qəlbinə əbədi olaraq həkk olunub. Allah rəhmət eləsin. Ulu Tanrı hər zaman Azərbaycanı qorusun!", - deyə paylaşımda Birinci vitse-prezidentin fikirləri qeyd olunub.

**"Yeni Müsavat"a danışan qazi jurnalist Rey Kərimoğlu bildirib ki, son zamanlar Mehriban Əliyevanın dəstəyi ilə şəhid və qazi ailələrinə xeyli kömək olunub:**

"Mehriban xanımın şəhid ailələrinə, müharibə döyüşçülərinə münasibəti çox fərqlidir. İndiyə qədər dövlətin qanunvericiliyinin tələbləri çərçivəsində xeyli işlər görülüb. İstər maşınların verilməsi, istərsə də mənzillərin verilməsi sahəsində xeyli irəliləyiş var. Bu il həm veriləcək avtomobillərin, həm də mənzillərin sayında ötən illə müqayisədə artım böyükdür. Cənab prezident İlham Əliyevin sərəncamları, tapşırıq və tövsiyələri ilə bu göstərici ötən illərlə müqayisəyə gəlməz dərəcədədir. Bu il 800-dən artıq Qarabağ əlili və şəhid ailəsi evlə təmin olunacaq. Eyni zamanda 500-dən artıq Qarabağ əlilinə avtomobil veriləcək. Proses gedir və biz də orada iştirak edirik. Evlərin, maşınların verilməsi prosesinə döyüşçülərin təmsil olunduğu təşkilat rəhbərlərinin də cəlb edilməsi müsbət haldır. Bu, oradakı şəffaflığın da qorunmasına xidmət edir. Biz bütün bunları müsbət qiymətləndiririk. Həm ölkə prezidenti İlham Əliyev, həm də birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu xüsusda yanaşması təqdirəlayiqdir. Aprel döyüşləri zamanı bizim ordumuzun parlaq qələbəsindən sonra Mehriban xanımın da şəhid ailələrinə baş çəkməsi, əlillərə müasir, rahat ortopedik vasitələrin verilməsində onun rolu danılmazdır. Biz döyüşçülər baş verənlərin hamısını görürük və hər şeyin fərqindəyik. Bir məsələni də qeyd edim ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev də bu vəzifəyə təyin olunduqdan sonra Mehriban xanımın tapşırığı ilə xeyli işlər görülüb. Belə ki, uzun illər idi şəhid ailələri, Qarabağ əlillərinin ev məsələsi



ilə bağlı problem var idi. Rövşən Rzayev gəldikdən sonra Mehriban xanımın tövsiyəsi ilə öncə Qarabağ əlillərinə, şəhid ailələrinə evlər verildi. Rzayev gəldikdən bu günə qədər "Qaçqınkom" tərəfindən təxminən 400-ə yaxın Qarabağ əlili, şəhid ailəsinə mənzil verilib. Hər zaman Rövşən Rzayev bildirir ki, Mehriban xanım Qarabağ əlillərinə, şəhid ailəsinə önəm verir. Yəni söyləyir ki, bu, dövlətin tapşırığı, prioritetidir".

**R. Kərimoğlu bəzi problemləri də dilə gətirib:**

"Arzu edərdik ki, əlillərin problemləri ilə məşğul olmaqda borclu olan məmurlar da öz vəzifələrinin öhdəsindən gəlsinlər. Daha çox bu problemləri rayon icra hakimiyyəti, Bakı Şəhər İcra Hakimiyyəti və eləcə də digər nazirliklərin səviyyəsində görürük. Arzu edərdik ki, bu adamlar cənab prezident İlham Əliyevdən, ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyevadan nümunə götürsünlər. Dəfələrlə prezident müşavirələrdə deyib ki, xalqın xidmətçisiyəm. Bütün məmurlara da özünü örnək kimi göstərib. Ancaq təəssüf ki, bəzi məmurlar bu məsələlərə laqeyd yanaşırlar. Bakının rayonlarından bizə hər gün xeyli sayda şikayət daxil olur. Qarabağ əlili 20-30 kvadrat torpaq istəyir ki, ticarətlə məşğul olsun, ancaq bunu vermirlər. Sonradan baxırsan ki, həmin yeri hansısa məmurun yaxınına, iş adamına veriblər. Atatürk parkında hazırda yenidənqurma işləri aparılır və o boyda parkda cəmi 1 nəfər Qarabağ qazisi işləyirdi. 1995-ci ildən həmin şəxs sərəncamla orada obyekt işlədirdi. Təmir zamanı obyekti sökdülər və dedilər ki, narahat olmayın, yenisini tikəcəyik. Oradakı obyektlərin hamısını bərpa ediblər, ancaq Qarabağ qazisi kənarda qalıb. Bu məsələ ilə bağlı biz də Bakı Şəhər İcra Hakimiyyətinə gedəcəyik. Çünki belə məsələlər bizi çox üzür. Sanki bu cür işləri qəsdən edirlər. Cənab prezident İlham Əliyevin, Mehriban xanım Əliyevanın davranışları bu adamlara örnək olmalıdır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Azərbaycan erməni hərbi əsirlərə münasibətdə beynəlxalq hüququn norma və prinsiplərinə sadiqdir"

## Əhməd Şahidov: "Bu cür davranış Azərbaycanın beynəlxalq təşkilatlardakı gücünü də artırır"

**Avqustun 12-də xidmət etdiyi hərbi hissədə baş verən özbaşınalıq, hərbi qulluqçulara qarşı edilən dözülməz və qeyri-insani münasibət səbəbindən cəbhənin Füzuli istiqamətindən erməni hərbi qulluqçusu Araik Kazaryan Azərbaycan tərəfə keçib. Düşmən ölkənin hərbçisi ilə necə davranılmalı olduğu barədə geniş müzakirələr açılıb.**

Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru, hüquq müdafiəçisi Əhməd Şahidov "Yeni Müsavat"da məsələyə bu cür şərh verdi: "Avqustun 12-də cəbhənin Füzuli istiqamətində könüllü şəkildə Azərbaycan tərəfinə keçən erməni hərbi qulluqçu Araik Kazaryanla bağlı məsələ əsir və girovlarla bağlı müzakirələri yenidən aktiv fazaya keçirib. Xüsusən də erməni cəmiyyətində bu məsələ ciddi rezonansa səbəb olub. Əsas səbəb odur ki, bu dəfə erməni hərbçisi könüllü şəkildə təslim olub və Ermənistan ordusunda mövcud olan işgəncə və qeyri-insani münasibətdən canını qurtarmaq üçün qarşı tərəfə keçib. Onun üzərindəki yara izləri də işgəncə faktlarını bir daha sübut edir. Mövcud vəziyyət heç şübhəsiz ki, Azərbaycan tərəfinin xeyrinədir. Düşmən ordusunda fərarilik halları, yeganə çıxış yolunu Azərbaycan tərəfinə təslim olmaqda görən erməni əsgərlərinin sayının artması və digər hallar Azərbaycanın artan qüdrətinin göstəricisidir. Lakin mən məsələyə bir hüquq müdafiəçisi kimi baxıram və düşünürəm ki, Azərbaycan beynəlxalq konvensiyalar çərçivəsində üzərinə düşən öhdəlikləri yerinə yetirir və doğru olaraq, erməni hərbi əsirlərə münasibətdə beynəlxalq hüququn norma və



prinsipləri ilə addım atır. Bu baxımdan Araik Kazaryana lazımı tibbi yardım göstərilib, Azərbaycan Ombudsmanının nümayəndələri ona baş çəkiblər və saxlandığı şəraitlə maraqlanıblar. Araik Kazaryan saxlanma zamanı hüquqlarının pozulmadığını deyib və saxlanma şəraitindən də heç bir şikayəti yoxdur. Bu, hüquqi dövlətdə atılmalı addımlardır və Azərbaycan da bu prinsiplərə sadiqdir. Qarşı tərəfin bizim girovlara necə davranmasından asılı olmayaraq, Azərbaycan öz prinsiplərindən vaz keçmir. Beynəlxalq ictimaiyyət də bunu görür və alqışlayır. Bu cür davranış Azərbaycanın beynəlxalq təşkilatlardakı gücünü də artırır və biz bütün platformalarda Ermənistanı küncə sıxışdırmış oluruq. Bu fakt Ermənistanda ciddi rezonansa səbəb olub. 2000-ci il təvəllüdlü Ermənistan Respublikası vətəndaşı, Ermənistanın Vayotsdzor vilayətinin Exegis kənd sakini Araik Kazaryan 8 aydır ki, hərbi xidmətdə idi və komandirləri tərəfindən davamlı təqib və təzyiqlərə məruz qaldığından qarşı tərəfə keçmək qərarına gəlib. Bu fakt Ermənistan ordusunda işgəncə hallarının olmasından xəbər verir. Məhz bu faktların aşkara çıxmasından narahat olan Ermənistan hakimiyyəti bir-birinə zidd açıqlamalar verməkdədir. Amma əsir düşdüyü zaman Kazaryanın üzərindəki işgəncə faktları əsl gerçəkləri ortaya çıxarmış oldu".

**Ə.Şahidov erməni girovluğunda saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevdən də söz açdı:** "Nəzərə alsaq ki, hazırda Ermənistan tərəfində 2 mülki girovumuz Dilqəm Əsgərov və Şahbaz Quliyev saxlanılmaqdadır. Odur ki, Azərbaycan tərəfində saxlanılan istənilən erməni hərbçisi konkret dəyişdirilmə predmetidir. Onların bizim girovlarımızla dəyişdirilməsi məsələsi bu gün aktualdır. Biz 5 ildir ki, girovlarımızın azadlığa buraxılması ilə bağlı çağırışlar edirik. Azərbaycan tərəfində erməni hərbi diversantların saxlanılmasından sonra rəsmi Bakının ritorikası da dəyişdi. Biz əsir və girovların dəyişdirilməsi məsələsini qaldırdıq. Bütün cəhdlərə baxmayaraq, rəsmi İrəvan bu çağırışa da tam cavab verməyib. Yalnız iyunun 28-də tərəflər arasında əsir və girovların dəyişdirilməsi prosesi baş tutdu və Elvin İbrahimov erməni diversant Zaven Karapetyanla dəyişdirildi. Kazaryanın Azərbaycan tərəfinə keçməsi artıq Nikol Paşinyan hakimiyyətini çətin vəziyyətə salıb. Erməni cəmiyyəti öz hakimiyyətlərinə etimad göstərmir. Təsadüfi deyil ki, ötən gün Ermənistanın baş naziri Nikol Paşinyan cəbhə bölgəsində xidmət edən erməni hərbi qulluqçuların sosial şəraitlərinin yaxşılaşdırılması barədə göstəriş verib. Bununla az da olsa, erməni cəmiyyətində baş qaldıran narazılıq dalğasını yatırmağa çalışırlar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 171 (7341) 20 avqust 2019



# Naməlum "qulyabanı"nın fotorobotu və mesajları

Samir SARI

**Orta məktəbdə oxuyanda AzTV-də bir dublyaj olunmuş rus filminə baxmışam, bir epizodu indiyə kimi yadımdadır.**

Deməli, nadinc yeniyetmələr başdan ayağa ağa bürünür, başlarına qoyduqları hündür papağa oxşar geyimdə iri gözlər, eybəcər ağız-burun rəsmi çəkirlər. Onlar belə bir maskada asta-asta hərəkət edərək gecənin qaranlığında Polina xalanın üstünə gəlirlər. Yazıq arvad "oyy, qulyabanı" deyə qışqırır və qorxusundan bayılır. Ertəsi gün yaramazlar gəlib Polya xaladan üzr istəyir, bağışlanmalarını xahiş edirlər, o da deyir: "Allah bağışlasın".

Amma belə görünür ki, Ucarın Çiyni kəndindəki "qulyabanı" ələ keçəndə üzr istəməklə canını qurtara bilməyəcək. Cinayət Məcəlləsində adamın törətdiyi əməli tövsif edən maddələr tapmaq olar və yəqin ki, tapıblar, sadəcə, adamın özünü tapmaq lazımdır.

İndi fövqəlbəşər qüvvələrə ürəkdən inanan inanclı yoldaşlar deyir, bu nə danışır, nə adam, nə insan, söhbət qulyabanıdan, naməlum məxluqdan gedir.

Belə şeylərə inamı olmayan adamlar da o xəbərləri oxuyub başlarını bulayırlar ki, nə qulyabanı, nə yet, nə cin, nə naməlum məxluq, hamısı boş söhbətdir, bu, insan əməlidir.

İndi sizin üçün öz versiyamı yazıram. Bu, böyük ehtimalla bir və ya bir neçə idmançı məziyyətləri olan gənc və çevik, "cin kimi" oğlanların işidir. Onlar öz aralarında sözləşiblər ki, gəlin elə bir şey edək, bütün ölkə bizdən, kəndimizdən danışsın. Bundan ötrü bir balaca maskalanmaq və kəndin qırağında bir neçə ayrı-ayrı adamın gözünə görünmək kifayətdir.

Bir adamın gözünə görünmək ona görə əlverişli deyil ki, o, gəlib kəndin ortasında əcaib varlıq gördüyünü desə, elə biləcəklər, dəli olub. Amma kəndin fərqli səmtlərindən gələn, "mən də görmüşəm, ağzı-burnu beləydi, bədəni tüklüydü, hoppana-hoppana qaçırdı" deyənlər 3-4 nəfər olanda hər kəs inanacaq. Bu qədər adam yalan danışmaz axı. Onların hamısı "qulyabanı"nın vizual görüntüsü təsvir edəndə ortaya əməlli-başlı fotorobot çıxır - qulyabanı fotorobotu.

Hətta belə bir insidentin törədilməsinin başqa, çirkin motivləri də ola bilər. Bir kriminal dəstə insanlar arasında təşviş, təlaş mühiti yaradaraq, bu mühitdən oğurluq və quldurluq kimi əməlləri rahat həyata keçirə bilmək üçün yararlana bilərlər.

Göründüyü kimi, müəllif qulyabanının mövcudluğuna şübhə edir. Düzdür, əsasən Nepal tərəflərdə yaşadığı, göründüyü deyilən qar adamı (yeti) barədə yazılı mənbələr çoxdur, amma onun da mövcudluğu şübhə altındadır. Varsa, ortaya çıxsın, kameraya düşsün. Bəzi fotoşəkillərdə və videolarda bədheybət bir varlığın bulanıq görüntüsü olub, amma o da əldədüzəltmə bir şey ola bilər. Jurnalistlər və kriminalistlər həmişə fakta söykənməlidirlər.

Ona görə də "qulyabanı" ya ölü, ya diri yaxalanmayınca konkret bir söz demək olmaz.

Elə onun neçə gündən bəri ortada görünməməsi də göstərir ki, o qədər də vəhşi "qulyabanı" deyil, ən azı mobil telefonu var, internetə girir, sosial şəbəkələrdə qurdalanır və bilir ki, hamı onu axtarır, ona görə də oturduğu yerdən çıxmır.

Güman ki, o, özü kimi başqa bir "qulyabanı" qardaşlığı ilə yazşır və ona "gördün, qaqan nağayardı, ölkə bizdən danışır e" deyə bol-bol gülüş işarələri qoyaraq mesaj yazır.

İndinin qulyabanıları belədir. Hoppana-hoppana qaçdıqlarına baxmayın, yaramazlar müasir telekommunikasiya vasitələrindən yaxşı baş çıxarırlar.

Qoy, ara sakitləşsin, onlar bir də üzə çıxacaqlar. Ta yaxalanana qədər, polis maşınında şapalaqlana-şapalaqlana bölməyə aparılanadək camaatı qorxutmaqda davam edəcəklər.

Ya da belə olacaq, o "qulyabanılar" bu işə elə burdaca son qoyub adam olacaqlar, bir daha gecənin qaranlığında maska geyinib kəndin ortasına çıxmayacaqlar. Amma gün gələcək, 15-20 ildən sonra, "qulyabanılar" orta yaşlı kişilər olanda bir dəfə kənd yeməkxanasında yeyib-içərkən ağızlarından qaçıracalar ki, o vaxt hamınızı dolayan, dəli edən biz olmuşduq, ha-ha-ha.

İndi desələr, söhbətin sonu "ha-ha-ha"yla bitməz, "ıh-ıh-ıh"la və hıçqırıq səslərinin başqa variantlarıyla bitər.

Günah isə təkcə o yaramaz "qulyabanı"larda deyil, uşaq vaxtdan "cin", "şeytan", "div", "qulyabanı", "hal" və sair fövqəlbəşərlərlə dolu nağıllarla böyüyən bizdə və bizə o nağılları danışanlardadır. Birdəfəlik bilmək lazımdır ki, dünyada "cin" və "şeytan" deyilən varlıq yoxdur. Uzun daşa (şeytana) xırda daş atmaq məsələsi isə başqa söhbətdir, inanc məsələsidir.

# Ölüm əməliyyatlarını icra edən Qoçqanidən mübhəm etiraf

## Pasiyenti ölüm masasına yalan məlumatlar verməklə çıxardığı bilindi; ictimai vəkil ciddi araşdırmaları ortaya qoydu...

**Azərbaycanda 2 pasiyenti cərrahiyyə masasında dünyasını dəyişən Sirus Qoçqani Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun ginekoloqu Sona Gürgün Vəliyevanın ölümü ilə bağlı olduqca ciddi etiraf edib. Sirus Qoçqaninin etirafı onun pasiyentinə əməliyyatdan əvvəl yalan danışmasını ortaya qoyur.**



Sona Vəliyeva Gürgünün ailəsinin nümayəndəsi, ictimai vəkil Samir Zeynalov bununla bağlı redaksiyamıza məlumat verib. Deyib ki, Sirus Qoçqani onunla yazışmasında Sona Gürgün Vəliyevanı aldatmasını, onu faktiki olaraq bu yolla əməliyyata razı saldığını qeyd edir.

**İctimai vəkil "Yeni Müsavat"a açıqlamasında qeyd edir ki, bununla belə, "Baku Medical Plaza"nın plastik-estetik cərrahı Sirus Qocqani israrla bildirir ki, onun liposaksiya əməliyyatları üçün istifadə etdiyi aparat "piy emboliyası" vermir:** "Hər kəsin bildiyi kimi, liposaksiya əməliyyatlarının əməliyyatı keçirən şəxs üçün başlıca risk göstəricisi məhz piy emboliyasının baş verməsi aktıdır. Mərhumə Sona Vəliyeva Gürgünün ölümünə dair "Baku Medikal Plaza"da tərtib edilən epikrizdə və əldə edilən ölüm şəhadətnaməsində ölüm səbəbi kimi kəskin ürək-ağciyər çatışmazlığı və ağciyər arteriyasının piy emboliyası göstərilib. Belə olan halda suallar yaranır. Əgər Sona xanımın vəfatına səbəb piy emboliyasının yaranması aktıdırsa, onda necə olub ki, həkimin vədinə əsasən emboliya verməyən aparat bu neqativ aktın gerçəkləşməsinə səbəb olub?

Əgər liposaksiya əməliyyatlarında istifadə olunan aparatların emboliya verməmək kimi zəmanətli özəlliyi yoxdursa və Sirus Qocqani üçün də bu fakt aşkar idisə, onda nəyə görə Sirus Qoçqani bilə-bilə mərhumu aldadıb? Əgər piy emboliyasının baş verməsi liposaksiya əməliyyatları üçün qarşısı alınmaz müşkül olan, həkim səhvini və ya səriştəsizliyini ehtiva etməyən aktdırsa, onda nəyə görə illərdir estetik cərrah işlədiyini qeyd edən Sirus Qoçqani piy emboliyasına görə özünü günahkar bilir?"

**Samir Zeynalov qeyd edir ki, paytaxtda özəl klinikalarda fəaliyyət göstərən bir çox cərrahlar liposaksiya əməliyyatlarında istifadə edilən son model aparatların belə emboliya verməməsi özəlliyini təkzib edirlər:** "Sirus Qoçqani isə göründüyü kimi, öz xidmətini bilə-bilə yalan reklam etməklə məşğul olaraq faciələrə yol açır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 198-ci maddəsinə görə, bilə-bilə yalan reklam etmək cinayət məsuliyyətinə səbəb olur".










İctimai vəkil Sirus Qoçqaninin təhsili ilə bağlı məlumatların doğru-dürüstlüyünə aydınlıq gətirilmədiyini də qeyd edir.

Yada salaq ki, Sirus Qoçqaninin köməkçisi onun həyat yoldaşıdır. O, ictimai vəkil Samir Zeynalova hədə mesajları yollayır. Sirus Qoçqani isə özünün Azərbaycanda sertifikasiyadan nə vaxt keçməsi, şəhadətnamə alıb-almaması ilə bağlı sualları cavablandırmaqdan yayınır.

Sona Gürgün Vəliyeva 2019-cu ilin mayında Sirus Qoçqaninin bıçağı altında, əməliyyat masasında dünyasını dəyişib. Belə aydın olur ki, Qoçqani ölkədə öz sahəsi üzrə tanınan həkimlərdən olan Sona Gürgün Vəliyevanı əməliyyata götürərkən prosesin həyat və sağlamlıq üçün tam təhlükəsiz olduğunu deyib. Tanınmış həkim aldadılaraq cərrahiyyə masasına götürülüb və nəticə dəhşətli olub. Həkim əməliyyat masasında ölüb.

"Baku Medikal Plaza"da baş tutan acı sonluqlu əməliyyatdan sonra Sona Gürgün Vəliyevanın yaxınları onun ölümündə plastik-estetik cərrah Sirus Qoçqanini, assistenti olan həyat yoldaşını günahlandırırlar.

İşin acınacaqlı tərəfi odur ki, tibbi təhsilinin olub-olmaması bilinməyən Sirus Qoçqani bu gün də əlində bıçaq pasiyent qəbul edir, Sona Gürgün Vəliyevanın məşum ölüm əməliyyatındakı aparatdan digər pasiyentlərin əməliyyatları zamanı da istifadə edir.

Digər tərəfdən, Sona Gürgün Vəliyeva Sirus Qoçqaninin bıçağı altından sağ çıxmayan ilk və sonuncu pasiyent deyil. 2017-ci ilin iyununda Sirus Qoçqaninin liposaksiya əməliyyatına götürdüyü 22 yaşlı model Leyla Oruclu da dünyasını dəyişmişdi. Leyla Orucludan əvvəl Sirus Qoçqaninin əməliyyat əlcəkləri kimi dəyişdiyi iş yerlərində belə acınacaqlı sonluqlu əməliyyatlara imza atıb-atmaması haqda konkret məlumatlar yoxdur. 2 ölüm faktı ortadadır və Sirus Qoçqani bu gün də fəaliyyətdədir. Odur ki, gələcəkdə oxşar olayların qeydə alınmayacağı ehtimalı da qalır.

Samir Zeynalovun açıqladığı məlumatlar ortada cinayətə bərabər səhlənkarlığın varlığından xəbər verir. Təsəvvür edin ki, hər iki ölümlə nəticələnən əməliyyatlardan əvvəl Sirus Qoçqaninin əlində konkret sənədlər olub. Həmin sənədlərdə də açıq-aşkar yazılıb ki, adamların səhhətləri cərrahiyə əməliyyatının keçirilməsinə imkan vermir.

Sirus Qoçqani həmin sənədləri oxuyub və bir kənara tullayıb, əlcəkləri əlinə keçirib və bıçağı pasiyentlərin qanına bulayıb. Bu gün də mümkün pasiyentləri lipoksasiya əməliyyatlarının təhlükəsizliyinə inandırmaq üçün Sirus Qoçqaninin köməkçisi videolar paylaşmaqdadır. Həmin videolardan birini də ictimai vəkil redaksiyamıza təqdim etmişdi.

Sirus Qoçqaninin Azərbaycandakı fəaliyyətinin ciddi şəkildə yoxlanılması zərurəti ortalıqdadır. Ölkənin hüquq-mühafizə orqanları, Azərbaycan məhkəməsi ölkə vətəndaşlarının ölümünə yol açan Sirus Qoçqaninin fəaliyyətinə onun özündən fərqli münasibət sergiləməlidir. Əks halda, ölümlərin davamlı olacağı gözlənilməndir.

**E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 171 (7341) 20 avqust 2019




# Rəhim Qazıyev Prezident Aparatını bombaladacağı ilə bağlı iddialara cavab verdi - şok ittihamlar, sərt suallar

## **Keçmiş müdafiə naziri:** "Vəzifədə qalsaydım, Əbülfəz bəyi devirməkdən ötrü mənim meyitim üstündən keçərdilər"; **İxtiyar Şirin:** "Prezident təyyarəsinə atəş açmaq Surət Hüseynovun və Rəhim Qazıyevin əmri ilə baş tutmuşdu"

**Sabiq baş nazir, AXP sədri Pənah Hüseynin "Yeni Müsavat"ın ötən sayında gedən açıqlamaları siyasi gündəmdə zəlzələ effekti yaradıb. Müsavat Partiyasının başqanı Arif Hacılının 26 il öncə paylaşdığı videoçıxışına münasibət bildirən sabiq baş nazirin açıqladığı iki fakt kifayət qədər diqqət çəkib.**

P.Hüseyn 1993-cü il 9 fevralda Azərbaycan ordusunun keçmiş korpus komandiri Surət Hüseynov və o zaman müdafiə naziri olan Rəhim Qazıyevin xəyanətkar elan olunmaları ilə bağlı AXC İcraiyyə Komitəsinin qəbul etdiyi bəyanatın televiziyada səsləndirilməsindən sonra R.Qazıyevin ona zəng etdiyini deyir.

**Sitat:** "Sənəd TV-də oxunandan bir qədər sonra o vaxtkı müdafiə naziri mənə zəng edib. Olduqca emosional formada etiraz bildirib. Hətta sonda, ola bilsin emosional çılğınlıq halının təsiri ilə və yəqin ki də belə olub, hərbi təyyarələri qaldırıb Prezident Aparatının binasını bombalamaqla hədələyib".

**Sabiq baş nazirin açıqladığı ikinci fakt daha ilgincdir. O, 1993-cü ilin fevralında Gəncədə baş verən hadisələrlə tanış olmaq üçün ora gedən mərhum prezident Əbülfəz Elçibəyin geri qayıdarkən təyyarəsinə atəş açıldığını bildirir:** "Ali Sovetin sədri İsa Qəmbərlə məsləhətləşmədən sonra prezidentin Gəncədən təcili olaraq Bakıya qayıtması qərara alınıb. Üzərində geniş dayanmayaraq qeyd edirəm ki, prezident təyyarəsinin Gəncə hava limanından uçmasının qarşısının alınmasına cəhd edildi və prezident təyyarəsi ekstremal bir vəziyyətdə qaranlıq hava limanından havalandı və təyyarənin uçuş marşrutu ənənəvi olmayan xətt üzrə həyata keçirildi. Yeni təyyarə Mingəçevir su anbarı üzərindən dövrə vurmadı. Sonrakı günlərdə Mingəçevir su anbarını mühafizə edən S20 raketlərindən birinin prezident təyyarəsinə atıldığı məlumatı gəldi. Rəsmi təhqiqat başlanıldı, cinayət işi açıldı və həmin cinayət işinin materialları saxlanır. Bir məsələni qeyd edim ki, prezident təyyarəsinin vurulması planı heç cür AXC İcraiyyə Komitəsinin bəyanatı ilə bağlı ola bilməzdi. Bir neçə saat ərzində bu cür planı hazırlayıb, icra etmək qeyri-mümkün məsələdir. Bu baxımdan ola da bilər ki, AXC İcraiyyə Komitəsinin bəyanatının açıqlanması daha dəhşətli sui-qəsd planını pozmuş oldu".

**Rəhim Qazıyev "Yeni Müsavat"a açıqlamasında Pənah Hüseynin dediklərinə cavab verdi:** "Allah ona ağıl versin. Ölkənin bu qədər ağır vaxtında gör nədən söz açırlar. Onun dediklərinə bir daha təəssüf edirəm. Arif Hacılı açıqlama verir ki, Surət Hüseynov Elçibəyçi idi. Bütün bunlar nəyə xidmət edir, bilmirəm. Sizlərin də bir neçə dəfədən sonra yadına düşüb ki, Rəhim Qazıyevin cavab haqqı var. Qısacası onu demək istəyirəm ki, Pənah, nə demək istəyirsən? Onunla telefonla o zaman danışanda kəskin şəkildə fikirlərimi ifadə etmişəm. 26 ildən sonra belə fikirləri demək ayıbdır. Rəhim Qazıyev partladan olsaydı, partladardı ki, ovcumuzun içərisində olan qələbə sizin əməllərə görə məğlubiyyətlə əvəzləndi. Onu deyim ki, 19 fevral 1993-cü ildə üçüncü ərizəmi yazıb istefaya getdiyim günə qədər biz qeyrətli, namuslu balaların qanı hesabına Dağlıq Qarabağın ümumi ərazisinin 52%-ni azad etmişdik, rus ordusunun sürətlə Azərbaycandan çıxarılmasına nail olmuşduq. Bu təkcə mənim xidmətim deyildi. Qeyrətli balalarımızın hesabına erməni köpəklərini it balası kimi qovurduq, Xankəndinin 8-10 kilometrliyinə çatmışdıq. Məndən sonra bir metr torpaq almayıblar. Aldığımız mövqeləri saxlaya bilmədilər. Pənahgilin təkidi ilə mən istefa verəndən qısa zamandan sonra Kəlbəcər getdi. 9 fevral bəyanatının verilməsinin əsas səbəbi o idi ki, Rəhim Qazıyev nüfuzunu itirsin, Surət Hüseynov imkanlarından məhrum olsun, bunlar biabır olub çıxsınlar, amma cəhənnəm məğlubiyyət olsun. Pənah indi islahat ideyasını ortaya atıb, istəyir ki, deputat mandatı alsın. 26 il öncə dövlət rəhbərliyindəki üç adamdan biri sən idin. Digəri isə İsa Qəmbər və Əbülfəz bəy idi. Niyə həbs etmirdiniz? Deyirsiniz ki, cinayət işi qaldırıldı. Prezidentin təyyarəsinə raket açıldı. Bununla bağlı indi də cinayət işi durur. Həmin hadisədən sonra 4 aya yaxın bunlar hakimiyyətdə oldular. Əgər bu müddətdə prezidentin həyatına qəsd edənlərə cinayət işi qaldırıb, cinayətkarları ortaya qoymamısınızsa, prezidentin ən qəddar düşmənləri siz olmusunuz. Qaldırdığınız cinayət işi bu günə qədər də durur. Sizin hakimiyyətdən sonra həbs edildim. Əgər barəmdə o hadisə ilə bağlı cinayət işi olsaydı, məni sağ buraxardılar? O qədər qondarma ittihamlara nə gərək var idi? Pənah Hüseynə çox təəssüf edirəm. Ona ayıb olsun. 26 ildən sonra bunun mahiyyəti nədir? Doğrudan da buna məəttəl qalıram. Ad da qoya bilmirəm. Bugünkü gündə bunun məqsədi nədir? Məsuliyyətimlə bunu deyirəm ki, hazırda Azərbaycanın dövlətçiliyi, ərazi bütövlüyü və xalqımızın taleyi ən böyük təhlükə altındadır. Buna Pənah Hüseyn niyə münasibət bildirmir? Jurnalistlər ona sual verməyə bu qədər acizdirlər? Başa düşmürəm ki, qarpızın bu qədər bazarda xod getdiyi vaxtda Pənah Hüseyn gedib niyə alveri ilə məşğul olmur? Bir daha deyirəm ki, onun dediyi telefon söhbətində ona ağır sözlər demişəm. Mən axmaq deyiləm ki, gecə-gündüz uğrunda mübarizə apardığım vətənə və dövlətçiliyimizin simvolu olan Prezident Aparatına bomba atam. Mən heç vaxt ağlımı itirməmişəm. İtirmək də fikrim yoxdur. Əbülfəz bəy həmin vaxt Gəncədə idi. Ağdərədə ağır vəziyyət yaranmışdı. Ölkə prezidentinə qarşı edilən hörmətsizliyə görə yerindəcə tədbir görülməli idi, amma bunlar onu görmədilər. Mənim elmi dərəcəm var. Pənah Hüseynin özündən və papkasından başqa heç nəyi yoxdur. Onlar partiya yarada bilirdilər, mən yox? İndiyə qədər nə partiya yaratmışam, nə də bir partiyanın üzvü olmuşam. Pənahdan vicdanı qarşısında oturub hesabat verməyi xahiş edirəm. Mən heç vaxt kiməsə sui-qəsd planı hazırlamamışam. Əbülfəz bəylə çox kəskin mübahisələr etmişəm, bizim mübarizə yoldaşımız idi. Pənah Hüseyn hamıdan yaxşı bilir ki, mən müdafiə naziri olaraq qalsaydım, Əbülfəz bəyi devirməkdən ötrü mənim meyitim üstündən keçərdilər. Mən atamın oğluyam. O, mənim Ali Baş Komandanım idi. Dövləti cinayətin müddəti yoxdur, məsələni qaldırsın, istintaq orqanlarına rəsmi müraciət etsin. Mən heç vaxt kiminsə sualından qaçmamışam. Müdafiə naziri olan vaxt canımla, qanımla çalışırdım ki, qələbə qazanım. Daxildə olan xəyanətlər sonda məğlubiyyətə gətirib çıxardı. Pənah Hüseynin sayıqlamaları gündəm olur, manşetlərə çıxır. Ya 2005, ya da 2006-cı il olardı, onunla sizin qəzetə debata gəlmişdim. Həmin Pənah Hüseyn açıq şəkildə demişdi ki, Fərəcin bəyanatını bu əllərimlə yazmışam. Özündən soruşun, desə ki, yalandır, zəng edin mənə deyin. Bəyanatı yazmaqda məqsəd nə idi? Prezidentin təyyarəsinə raket atılandan sonra açılan cinayət işi niyə sona qədər aparılmadı? Bundan sonra Əbülfəz Elçibəy 4 ay hakimiyyətdə oldu. Pənah Hüseyn o cinayət işini niyə sona çatdırmadı? Onlara nə mane oldu? Ortada bu söhbətlər var".

**Elçibəy iqtidarının baş prokuroru olmuş İxtiyar Şirin cinayət işinin üstünü aça bilmələrinə bu cür aydınlıq gətirdi:** "Cinayət işini biz qaldırdıq. Hakimiyyətimizdən sonra cinayət işi bir tərəfə atıldı. İstintaq dayandırıldı, çünki onların hamısı Surət Hüseynova aid adamlar idi. Bizdə olan materiallara görə Mingəçevir su anbarını mühafizə edən Hava Hücumundan Müdafiə Qüvvələri Əbülfəz Elçibəyin təyyarəsinə raketdən atəş açmışdılar. Bu, Surət Hüseynovun və Rəhim Qazıyevin əmri ilə baş tutmuşdu. Cinayət işinin istintaqını ona görə tam başa çatdıra bilmədik ki, o quldur dəstəsinə tam yaxın getmək mümkün deyildi. Həmin hadisədən sonra Kəlbəcərin işğalı baş verdi. Başımız başqa işlərə qarışdı. Daha ciddi və vacib işlər idi. Nəticədə o cinayətkar qrupun tam şəkildə ifşasına nail ola bilmədik. Məhz bunun nəticəsində Gəncə hadisələri baş verdi. Ölkənin siyasi rəhbərliyinin humanist davranışları da cinayətkar qrupun ram edilməməsinə səbəb olan amillərdən biri idi. Əbülfəz bəy istəyirdi ki, bu məsələlər konkretləşmə ilə yoluna qoyulsun. Məhz bu səbəbdən ola bilsin ki, bu məsələdə ciddi, qəti qərarların lehinə deyildi. İstəmirdi ki, bu adamlara qarşı çox ciddi qərarlar qəbul olunsun. Ona görə məsələni kökündən qazıyıb birdəfəlik həll etmək mümkün olmadı. Təyyarəyə atəşi açanlar deməli idilər ki, bu əmri kim verib. Onlar Surət Hüseynovun dəstəsində olduqları üçün onları həbs etmək, dindirmək mümkün olmadı. Amma müəyyən istintaq hərəkətləri aparılmış, bəzi məsələlər aydınlaşdırılmışdı. İşi hərbi prokurorluq aparırdı. Həmin prokuror da mərhum Rövşən Əliyev idi. Orada müəyyən qətiyyətsizlik var idi. Bu qətiyyətsizlik sonralar meydana çıxdı. Məlum oldu ki, qanunun tərəfində durmayıblar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# “Adımdan yazılan cümlələri mən deməmişəm”

## Ağacan Əbiyev onun adından yazanlara sərt cavab verdi…

**Sosial şəbəkələrdə Milli Məclisin deputatı, Azərbaycan Boks Federasiyasının birinci vitse-prezidenti, professor Ağacan Əbiyevin guya məşhur boksçu Məhəmməd Əli haqqında söylədiyi fikirlər paylaşılaraq, müzakirəyə çıxarılıb. Paylaşımlarda bildirilir ki, Ağacan Əbiyev müsahibələrinin birində Məhəmməd Əli haqqında aşağıdakıları söyləyib:**

“Mən Məhəmməd Əli ilə Amerikada görüşmüşəm. Mən 57 kiloqram, Məhəmməd Əli isə ağır çəkidə mübarizə aparıb. Aramızda çəki fərqi olduğu üçün bizim rinqdə görüşümüz baş tutmayıb”.

Bəs Ağacan Əbiyev doğrudan da bu cür fikir səsləndiribmi?

“Yeni Müsavat”a danışan **Ağacan Əbiyev** söylədi ki, o, bu cür savadsız cümlələr işlətməz. Bildirdi ki, onun adından belə fikirlər paylaşanlara cavab vermək istəmir. Lakin söhbətimiz əsasında müəyyən məsələlərə aydınlıq gətirdi:

“Birincisi, Məhəmməd Əli barəsində məndən müsahibəni iki il öncə alıblar. Həmin zaman da bu cür fikirlər işlətməmişəm. İndi durub bunu haradan yada salıblar. 1998-ci ildə mən Məhəmməd Əlinin 55 illiyi ilə bağlı doğulduğu şəhərdə keçirilən beynəlxalq turnirdə iştirak etmişəm. Orada şəxsən Əli ilə görüşdüm, ona Azərbaycan xalçası bağışladım. Mənim ona



münasibətim çox yüksəkdir. Yəni yalnız o zaman görüşmüşəm. Məhəmməd Əlinin çəkisi 95 kilo idi. Mənim isə çəkim 57 kiloqram olub. Onunla işləyə bilərdim? Bunu başa düşürlərmi?”

**Ağacan Əbiyev gündəlik həyatı barədə də danışıb. O bildirib ki, səhər idmanına xüsusi önəm verir:**

“Hər səhər yarım saat idmanla məşğul oluram. Bunu hesab edirəm ki, hər kəs etməlidir. Çünki insana böyük faydası var. Səhər idmanının faydaları barədə bu yaxınlarda məqalə də yazmağı düşünürəm. Səhərlər idman etmək ilk növbədə insanın ürəyi üçün faydalıdır. Əgər ürəyinin sənə 100 il qulluq etməyini istəyirsənsə, səhər heç olmasa 10 dəqiqə qaçmaq lazımdır ki, ürək dincəlsin. Məndən soruşurlar ki, Ağacan müəllim, insan qaçanda bəyəm ürəyi dincəlir? Deyirəm ki, siz axı insan orqanizmi haqqında məlumatlı deyilsiniz. Biz qaçdığımız zaman hər saniyədə 1 dəfə çəkisiz vəziyyətdə oluruq. O zaman isə bizim ürəyimiz dincəlir. Çünki çəkisiz qanı vurur. Ağacan Əbiyev 6 dəfə Azərbaycan çempionu olub, SSRİ-də iki finala çıxıb. 1957-ci ildə Zaqafqaziya spartakiadasında SSRİ-də ikinci olan Qrant Sarkisyanı nakaut edib. Bu yarışda birinci oldum və SSRİ idman ustası statusu aldım. Bu zaman 20 yaşım vardı. 1964-cü ildə mənə SSRİ-nin fəxri idman ustası statusunu veriblər. Mən 10 ildən çox məşqçi işləmiş, idman ustaları hazırlamış və Azərbaycan boksuna xidmət etmişəm. İkincisi, mən hakiməm. 25 il dünyanın müxtəlif ölkələrində - SSRİ, ABŞ və Avropada hakimlik etmişəm. SSRİ ölkələrində yeganə hakim Ağacan Əbiyevdir ki, Olimpiya oyunlarının baş hakimi olub. Əlbəttə, Ağacan hara, Məhəmməd Əli hara. Əlinin çəkisi 100 kiloqram idi, mənimki 57. İkincisi, Əli həm olimpiya çempionu olub, həm də peşəkar boksda uzun illər vuruşub. Mənsə həvəskar boksçu, Azərbaycan çempionu ola-ola həm də Politexnik İnstitutunda təhsil almışam. Yəni mən nə dünya çempionu olmuşam, nə də olimpiya çempionu. İdmandan xəbəri olan adam bu cür fikirlər yazmaz. Bu, camaatı dolamaq, aldatmaqdır. Onu yazana demək lazımdır ki, niyə camaatı dolamısan? Ağacan Məhəmməd Əli ilə necə görüşə bilərdi? Bunu bilmirlər? Yoxsa mən yaşda kişini dolayıblar? Əgər 82 yaşında kişini belə dolayırlarsa, qoy Allah onları dolasın”.

❑ **Əli RAİS, “Yeni Müsavat”**

# Məktəb formaları ilə bağlı yeniliklər var

## Bakı Tikiş Evinin şöbə rəisi: “Bizdən alınan geyimlərə zəmanət veririk...”

**Tədris ilinin başlanmasına 1 aydan az zaman qalır. Bu səbəbdən məktəbli formaları ilə bağlı məsələ artıq gündəmdədir. Valideynləri daha çox məktəbli geyimlərinin formasının dəyişilməsi, qiymətlərlə bağlı məsələ maraqlandırır. Bəzi sosial şəbəkələrdə məktəbli formalarının dəyişdirilməsi ilə bağlı müxtəlif fikirlər yer alır. Bəs görəsən, geyimlərdə hansısa dəyişiklik olacaqmı?**

Qeyd edək ki, Təhsil Nazirliyində bütün ölkədə vahid məktəbli formasının tətbiq edilməsi ilə bağlı işçi qrup yaradılıb. Bundan başqa, nazirlik məktəbli formasının satışı ilə bağlı direktorlara xəbərdarlıq da edib. Qeyd edilir ki, heç bir məktəb rəhbərliyi forma satışı ilə məşğul ola və valideynləri bu prosesə sövq edə bilməz.

**Mövzu ilə bağlı Bakı Tikiş Evinin (BTE) satış şöbəsinin rəisi Etibar Əzimov “Yeni Müsavat”a danışdı:** “Məktəbli geyimlərinin formasında və qiymətində heç bir dəyişiklik yoxdur. Dəyişiklik əsasən 2020-2021-ci il üçün nəzərdə tutulub. Bunun üçün nazirliyin tərkibində işçi qrupu yaradılıb və bizim qurumun baş dizayneri, konstruktoru və baş mühəndisi qrupa cəlb edilib. Amma hələlik bu barədə ciddi bir iş görülməyib. Qeyd edim ki, qiymətlər əsasən 2017-ci ilin qiymətləridir. Belə ki, geyimlərin qiyməti 1-6-cı sinif şagirdləri üçün 40 manat, 7-11-ci siniflər üçün isə 46 manatdır. Məlum olduğu kimi, bizim 9 satış məntəqəmiz var ki, onların da hamısında hazırda satış başlayıb və lazım olan qədər məktəbli geyimlərinin bütün modelləri var. Satış isə hələlik zəifdir, çünki ictimaiyyətdə müxtəlif söz-söhbət yayılıb, guya ki, formalar dəyişəcək və yaxud guya bir sıra məktəb direktorları məsləhət görüb ki, avqustun 20-dən sonra geyimlər alınsın. Bütün bu söz-söhbətlər valideynləri çaş-baş salıb. Yəni buna görə hələlik satış zəifdir. Bununla belə, indidən gəlib geyim alan valideynlər var. Qeyd edim ki, valideynlər qaynar xəttimizə zəng edərək bizim məlumatları öyrənə, suallarına cavab tapa bilərlər. Beləliklə, qaynar xəttimiz olan 597-45-39 nömrəsi hər zaman aktivdir. Valideynlər bu nömrəyə zəng etməklə, həm də yaşadıqları əraziyə yaxın olan məntəqəmizin ünvanını öyrənib, ora müraciət edə bilər. Satış mərkəzlərimiz Bakının bütün rayonlarında, ucqar nöqtələrində - Mərdəkan, Buzovna və s. yerlərdə, Sumqayıt və İsmayıllıda yerləşir. Bundan əlavə, forma almaq üçün valideynlər uzaq məsafələrə getməsinlər deyə metro çıxışlarında da BTE-nin satış mərkəzləri var.



İsmayıllı rayonundan başqa, digər bölgələrdən sifariş gəlmədiyi üçün hələlik satış mərkəzlərimiz qeyd olunan yerlərdədir".

**Etibar Əzimov valideynlərə müraciət edərək, geyim alarkən diqqətli olmağa çağırıb:** “Bəzən Çindən zirzəmi şəraitində tikilən keyfiyyətsiz paltarlar kilo ilə gətirilir və üzərinə BTE-nin emblemi vurularaq əhaliyə satılır. Bu cür paltarlar nisbətən ucuz olduğu üçün bəzən valideynlər həmin paltarlara meyllənə bilir. Amma həmin paltarların tikilişinə, keyfiyyətinə baxanda saxta olduğunu asanlıqla görmək mümkündür. Valideyn ucuz paltarı alsa da, qısa vaxtdan sonra keyfiyyətini itirir və məcburən yenisini alır. Bizdən alınan bütün geyimlərə zəmanət veririk. Valideynlər geyim alarkən mütləq sertifikat tələb etsinlər. Çalışsınlar ki, geyim alarkən bizim mağazalarımıza müraciət etsinlər. Keyfiyyətsiz formaları adi gözlə də ayırd etmək olur. Belə ki, saxta formalar parçanın keyfiyyətindən, tikişlərin səliqəsizliyindən və qiymətlərin ucuz olmasından bilinir. Bizim geyimlərin materialları Türkiyədən gətirilir və Avropa laboratoriyasının sertifikatı var. Formalar ən azı 2 il keyfiyyətini itirmir, yəni ölçüdən çıxana qədər geyinmək olar. Lakin saxta geyimləri heç yarım il də geyinmək olmur. Bir dəfə yuyulan kimi rəngi dəyişir, tiftiklənir. Həm də belə formalar allergik reaksiyalara səbəb ola, səpki verə bilər. Ona görə də valideynlərə tövsiyə edirəm ki, təsadüfi yerlərdən məktəbli forması almasınlar”.

**Qeyd edək ki, Təhsil Nazirliyinin baş məsləhətçisi Əhliyət Adıgözəlov da APA-ya açıqlamasında bildirib ki, vahid məktəbli forması 2020-2021-ci tədris ilindən bütün ümumtəhsil müəssisələrində tətbiq olunacaq:** “Hazırda ölkə üzrə 1 milyon 400 minə yaxın şagird var. Vahid məktəbli formasında ibtidai siniflə yuxarı sinif şagirdlərinin geyim forması fərqlənəcək. İbtidai siniflə yuxarı sinifləri eyniləşdirmək olmaz, burada yaş xüsusiyyəti var. Bu yaş xüsusiyyəti nəzərə alınmalıdır. Bu məsələ də hazırda müzakirədədir. Bildiyiniz kimi, dərs ili 15 sentyabrda başlayıb, 14 iyunda başa çatır. Yeni sentyabrda da müəyyən qədər isti hava olur, eyni zamanda may ayının əvvəlindən də artıq hava isinir. Bu səbəbdən geyim forması hazırlanarkən fəsillər də nəzərə alınacaq”.

**Baş məsləhətçi geyim formalarının bölgələrə necə çatdırılacağına da aydınlıq gətirib. O bildirib ki, Bakı Tikiş Evi məktəbli formalarını bütün ölkə üçün hazırlayacaq:** “Yəqin ki, Bakı Tikiş Evinin yerlərdə satış məntəqələri olacaq. Çünki bölgələrdəki valideynlərə demək olmaz ki, gəlib Bakıdan forma alıb aparsın. Hələlik bu məsələ müzakirə olunmayıb, ancaq çox güman ki, yerlərdə satış məntəqələri olacaq”.

**Ə. Adıgözəlov qeyd edib ki, vahid məktəbli forması yalnız dövlət ümumtəhsil məktəblərində tətbiq olunacaq: “Liseylər də bu və ya fərqli formanı tətbiq edə bilərlər”.**

**Məktəbli formasının qiymətini BTE müəyyənləşdirəcək:** “Təbii ki, burada əhalinin alıcılıq qabiliyyəti nəzərə alınacaq. Geyim forması tam qərarlaşdırıldıqdan sonra qiymət məsələsinə də baxılacaq”.

❑ **Xalidə GƏRAY, Yeni Müsavat**

YENİ MÜSAVAT
N 171 (7341) 20 avqust 2019

# Deputatın oğlunun həbsinin pərdəarxası

## Vergi əməkdaşlarını daş-qalaq etdiyinə görə övladı və qohum-qardaşı qandallanan İqbal Məmmədovun yalanının ömrü 3 saat çəkdi; "Relaks"da külli miqdarda vergidən yayınma üzə çıxdı

**Lerik rayonunda yerləşən "Relaks" istirahət mərkəzinə gələn Vergilər Nazirliyinin əməkdaşları döyülüb. İstirahət mərkəzinə yoxlamaya göndərilən vergi işçiləri əraziyə buraxılmayıb. Köməyə çağırılan polisləri də "Relax" istirahət mərkəzinə buraxmayıblar, vergi işçilərinə kütləvi şəkildə fiziki güc tətbiq olunub.**



Bu hadisə barədə iqtisadçı-ekspert Qulu İbrahimli özünün facebook hesabında "Relax" istirahət mərkəzinin deputat İqbal Məmmədova məxsus olduğunu, yoxlamaya gələn Vergilər Nazirliyinin əməkdaşlarını da onun döydürdüyünü yazıb.

**Deputat İqbal Məmmədov** məsələ ilə bağlı Unikal.org-a açıqlama verib. O, "Relax" istirahət mərkəzində baş verən hadisəni təxribat adlandırıb: "Bizim vergilərlə heç bir problemimiz yoxdur. Onlar bu ayın 15-dən "Relax"da yoxlama aparırlar. Dava "Relax"ın əməkdaşları və turistlər arasında olub. Hadisəyə polis müdaxilə edib. Ola bilər həmin vaxt vergilərin əməkdaşları da orada olublar və belə xoşagəlməz hadisə baş verib".

Avqustun 19-da səhər saatlarında məlumat yayıldı ki, hadisə ilə bağlı İ.Məmmədovun oğlu Mirhəmid Nərimanlı və digər 5 nəfər həbs edilib.

APA-nın məlumatına görə, "Relax"da dövlət qurumunun nümayəndələrinin vəzifələrini icra etməsinə imkan verilməyib və qarşıdurma yaranıb. Vergilər, Daxili İşlər nazirlikləri və prokurorluq orqanlarının birgə həyata keçirdiyi tədbirlər nəticəsində İqbal Məmmədovun oğlu Mirhəmid Nərimanlı da daxil olmaqla, 6 nəfər tutulub.

İqbal Məmmədov isə oğlu Mirhəmid Nərimanlı da daxil olmaqla 6 qohumunun saxlanılmasını da təkzib etmişdi: "Oğlum və qohumlarımın saxlanılması xəbəri yalandır".



**Günün sonunda isə Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətləri birgə məlumat yaydı. Həmin məlumatda deyilir:**

"Son dövrlər vergi yoxlamalarının ümumi sayının azalmasına baxmayaraq, Vergilər Nazirliyi vergidənyayınma ehtimalı yüksək olan hallarda vergi nəzarəti tədbirləri həyata keçirir. Növbəti belə tədbirin Lerik rayonunda fəaliyyət göstərən "Relaks" istirahət və turizm mərkəzində cari il avqustun 16-da keçirilməsi planlaşdırılıb. Nəzarət tədbirinin həyata keçirilməsinə istirahət mərkəzindən dövlət büdcəsinə ödənilən vergilərin kəskin şəkildə azalması səbəb olub. Belə ki, faktiki sahəsi 14 hektardan çox olan və qonaqların qalması üçün 142 nömrədən ibarət istirahət mərkəzində müxtəlif təyinatlı 20 obyektin fəaliyyət göstərməsinə baxmayaraq, 2018-ci ildə cəmi 10 min 726 manat, 2019-cu ilin ötən dövrü ərzində isə 972 manat məbləğində vergi ödənilib. Bundan başqa, "Relaks" istirahət mərkəzi vahid idarəetmə sisteminə malik olmasına baxmayaraq, vergidənyayınma məqsədilə buradakı obyektlər ayrı-ayrı vergi ödəyicilərinin adına rəsmiləşdirilmiş, bir sıra obyektlər vergi orqanında uçota alınmadan fəaliyyət göstəriblər. İstirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə vergi qanunvericiliyinin tələblərinə əməl olunmasının zəruriliyi, mövcud çatışmazlıqların və vergidənyayınma hallarının aradan qaldırılması haqqında dəfələrlə xəbərdarlıq edilsə də, buna məhəl qoyulmayıb.

Bu səbəbdən, real vergi potensialının müəyyən edilməsi məqsədilə Vergilər Nazirliyinin 6 saylı Ərazi Vergilər İdarəsi tərəfindən istirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə məxsus obyektlərdə xronometraj və digər operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi barədə qərar qəbul edilib.

Avqustun 16-da nəzarət tədbirlərini həyata keçirmək üçün təsərrüfat subyektinə gələn Vergilər Nazirliyinin əməkdaşları burada müqavimətlə üzləşmiş, onlara qanuni fəaliyyətinin həyata keçirilməsinə maneələr törədilib. Aparılmış izahat və məlumatlandırma tədbirlərinə, yoxlamanın keçirilməsi barədə müvafiq qərarların təqdim edilməsinə baxmayaraq, vergi əməkdaşlarının əraziyə daxil olmasına imkan verilməyib. Hadisə yerinə gəlmiş Lerik Rayon Polis Şöbəsinin əməkdaşlarının, eləcə də Lerik Rayon İcra Hakimiyyəti nümayəndələrinin də məsələyə müdaxiləsi müsbət nəticə verməmiş, istirahət mərkəzinin vəzifəli nümayəndələri kimi özünü təqdim etmiş şəxslər vergi əməkdaşları və polis işçilərinə hücum təşkil edərək onlara müxtəlif dərəcəli xəsarətlər yetirib, bundan başqa, Vergilər Nazirliyinin xidməti istifadəsində və nazirlik əməkdaşlarının şəxsi istifadələrində olan avtomaşınlara daş parçaları ilə zədələr yetiriblər.

Həmin faktla bağlı cinayət işi başlanmış, təcrübəli polis və prokurorluq əməkdaşlarından ibarət istintaq qrupu yaradılmış, eləcə də Baş Prokurorluğun, Vergilər və Daxili İşlər nazirliklərinin vəzifəli şəxsləri rayona ezam olunublar.

Hadisə ilə əlaqədar Daxili İşlər Nazirliyi və Baş Prokurorluq tərəfindən vəziyyət dərhal nəzarətə götürülmüş, operativ tədbirlər həyata keçirilməklə ictimai asayiş bərpa olunmuş, vergi əməkdaşlarının "Relaks" istirahət mərkəzində vergi nəzarəti tədbirinin keçirilməsinə zəruri şərait təmin edilib.

Cinayət işi üzrə kriminalistik texniki vasitələrdən istifadə olunmaqla hadisə yerinə foto və videoçəkiliş aparılmaqla baxış keçirilmiş, hadisələrin başvermə məkanı fiksasiya olunmuş, maddi sübutlar götürülmüş, hadisənin şahidləri müəyyənləşdirilərək dindirilmiş, məhkəmə-tibbi, məhkəmə-əmtəəşünaslıq, məhkəmə-trasoloji ekspertizalar təyin edilib. İş üzrə istirahət mərkəzinin təşkilati-sərəncamverici və inzibati funksiyaları yerinə yetirən vəzifəli şəxsləri - Mirhəmid İqbal oğlu Nərimanlı, Orxan Çingiz oğlu Nərimanlı, Pərviz Əvəzoviç Əsgərov, Famil Kamran oğlu İmanov, Rahim Bəhlul oğlu Şahverdiyev və Amir Nağızadə oğlu Abbasov Cinayət Məcəlləsinin 309.2 (vəzifə səlahiyyətlərini ağır nəticələrə səbəb olmaqla aşma) və 315.2-ci (hakimiyyət nümayəndələrinə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiqetmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi üzrə bütün xüsusatların, əməllərində cinayət tərkibi olan şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində kompleks istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Hazırda "Relaks" istirahət və turizm mərkəzində bütün obyektlər normal fəaliyyət göstərir, qonaqlar rahat şəkildə istirahət edir, eyni zamanda vergi nəzarəti tədbirləri adi rejimdə aparılır".

Göründüyü kimi, deputat İ.Məmmədovun yalan danışmaqla oğlunu hadisədən kənar qoymaq istəyi rəsmi məlumat yayılana qədər oldu. Üstəlik, deputatın obyektində vergilərin dövlət büdcəsindən yayındırılması da faktlarla ortaya qoyulub. Məsələnin daha ciddi şəkildə araşdırılması İ.Məmmədovun deputat mandatı ilə vaxtından əvvəl vidalaşması ilə nəticələnə biləcəyi ehtimalını da yaradır.

"Yeni Müsavat"a çatan xəbərə görə, iqtidar deputatı İ.Məmmədovun ailəsinin "dövlətə meydan oxumaq" kimi qavranılan davranışına hakimiyyət tərəfindən çox sərt reaksiya veriləcək.

**Hakimiyyət mənsublarından biri "Yeni Müsavat"ın əməkdaşı ilə qeyri-rəsmi söhbəti zamanı deyib ki, İ.Məmmədov iqtidar deputatı olmasına rəğmən, iqtidarın mənafeyinə, cəmiyyətdəki nüfuzuna xələl gətirməklə məşğul olub. Sitat:** "Onun gözünü sanki pul örtmüşdü. Axır illərdə bir deputata yaraşmayacaq tərz nümayiş etdirirdi. İndiyədək adı bir sıra qalmaqallı olaylarda, borc davalarında, müxtəlif dövlət qurumlarının səlahiyyətli şəxslərinə hədə-qorxu gəlməkdə hallanıb və buna dair bir neçə faktlar da fiksə edilib. Özünü iqtidar deputatı kimi təqdim edən bu şəxsin davranışları cəmiyyətdə qıcıq yaradırdı. Prezident İlham Əliyev son illərdə iqtisadi-sosial problemlərin həlli ilə bağlı köklü islahatlar aparır, sahibkarlığa dəstək verir, hər çıxışında məmurlara, iqtidar adamlarına səslənir ki, qanunsuz davranışlara yol verməsinlər, bunu edənlər sərt cəzalanacaq. İqbal Məmmədov faktiki olaraq dövlətin bu siyasətinin əleyhinə davranış sərgiləyib, əhalidə qıcıq yaradıb və nəhayət, onun adamları dövlətin məmurlarına əl qaldırıb".

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**



# Hətta bəzən kişilər

Zamin HACI
zaminhaci@gmail.com

"Vay, vay! Deyəsən bəşər deyil bu!
Bir şəklə uyan təhər deyil bu!"

*(Sabir)*

**Son yazımda qulyabanı ictimai-siyasi probleminə yüngülcə toxunmuşdum, ancaq məsələnin dərinliklərinə enmək lazımdır. İlk növbədə biz hüquq-mühafizə orqanlarının zəif fəaliyyətindən narazı qalmağa hardasa meylli olmağa borclu kimi görünsək, düşünürəm, səhv etmərik. Niyə indiyə qədər bir qulyabanı tutulub türməyə salınmamışdır? Nə üçün qulyabanıların sərbəst toplaşmasına, kənd icra hakimiyyətlərindən icazəsiz şəkildə özü də - icazə verilir? Bəyəm biz indi 1992-1993-1884-1773-1492-ci illərdə yaşayırıq? Yox. İndi bizdə hər bir ərazidə ASAN-xidmət mərkəzləri xalqa yüksək səviyyədə xidmət göstərir. Ucardan isə belə xəbər alırıq ki, DİN Mətbuat xidmətinin Şirvan regional qrupunun baş inspektoru, polis baş leytenantı Toğrul Nəsirli oxu.az-a açıqlamasında qulyabanının tutulması xəbərini təkzib edibdir. Sitat: "Çiyni kəndi ərazisində artıq neçə gündür polis postları qurulub. Amma hələ ki, deyilən məxluq görünməyib. Axtarışlar aparılır".**

Gördüyümüz kimi, burada əməliyyat-axtarış prosedurlarının pozuntusu hiss olunur. Sən axı nə üçün qulyabanının axtarılmasını hər cür saytda, orda-burda açıq bildirirsən? Məqsədin nədir? Ta qulyabanı bilən dən sonra ki, kənddə polis postları qurulubdur, bir də gözə görünərmi? Başa düşürəm, biz demokratiya, aşkarlıq, mətbuata dövlət qayğısı şəraitində yaşayırıq, dövlətin hər addımı xalqa çatdırılır, ancaq müəyyən hərbi-strateji, taktiki-operativ məsələlər olur ki, onu sirr saxlamalısan. Klassikimizin sözü olmasın, sən orda "aç qapını, gələk səni öldürək" deyəcəksənsə, nəinki qulyabanı, heç milçək tutmağın mümkün olmaz.

Yeri gəlmişkən, qulyabanıların xalqın həyatına mənfi təsirinin forma və üsullarını da mən elə o xəbərdən öyrəndim. Sitat nömrə 2: "Qadın və uşaqlar, hətta bəzən kişilər gecələr küçəyə çıxmaqdan qorxduqlarını bildiriblər". Doğrudan da, bizim müstəqillik dövründə ən böyük uğurlarımızdan biri gecələr küçəyə çıxmağımız idi, indi bundan məhrum oluruqsa, nə üçün yaşamalıyıq? Məsələn, mən bu yaxında gecə saat 4-də Kürdəmir rayonu ərazisindən keçirdim, yolun qırağında o qədər adam, maşın, avtobus var idi, əyləncənin, səs-küyün, işıqların effekti elə göyə ucalırdı sanardın Las Veqasdasan. Əlbəttə, Azərbaycan xalqı həmişə, ömrü boyu oyaq olmuş, torpaqlarının keşiyində ayıq-sayıq dayanmışdır, buna söz yoxdur. İndi biz bu mühüm keyfiyyətimizi itirsək, mənfur qonşularımızdan nə fərqimiz qalar? Qulyabanının son peyda olduğu Ucar rayonu Kürdəmirlə qonşudur, kim zəmanət verə bilər ki, sabah o qulyabanı Kürdəmirin "Bığ" restoranında oturub mığmığadan dəmlənmiş pürrəngi çaydan hortdatmayacaqdır?

Hesab edirəm ki, dövlət fondlarının vəsaiti hesabına ucarlı kəndlilərin müvəqqəti də olsa Bakıda gecə gəzintiləri təşkil olunmalıdır. Qulyabanı tapılana qədər. Çətin iş deyildir, beş-on avtobus göndərib camaatı dənizkənarı bulvara gətirmək olar. Bizdə konstitusiyada yazılıb ki, qanun qarşısında hamı bərabərdir. Ancaq indiki halda Bakı sakinləri gecə gəzirlər, Ucar kəndliləri isə yox. Bu da dövlətimizin müsbət imicinə xələl gətirir. Məncə dünya azərbaycanlılarının qarşıdan gələn həmrəylik günü münasibətilə biz özümüz dünyanın hər bir yerində gecələr evdə oturmaq aksiyaları keçirə bilərik. Qoy Ucar kəndliləri qulyabanı qarşısında tək qalmadıqlarını görsünlər, sarsılmasınlar, gələcəyə inamları ölməsin.

Mən özüm şəxsən bir jurnalist olaraq bu yazının qonorarını evdə oturmağa sərf edəcəyimə and içirəm. Hətta ola bilər hamama da keçməyim - quru evdə oturma etiraz aksiyası keçirdim. Əlaqədar orqanlardan xahiş edirəm, məni narahat etməsinlər.

# Kremldən Paşinyana şillə kimi qərar - Patruşev gedən kimi...

## Rusiya erməni kriminal oliqarxı İrəvana təhvil verməkdən imtina etdi; erməni mediası ölkənin artıq hər tərəfdən zərbə yeyə biləcəyi məkana çevrildiyini yazır; **yerli KİV:** "Bakı bölgədə Qərb üçün prioritet tərəfdaşa çevrilir..."

**İşğalçı Ermənistanda 8 may "məxməri inqilab"ından dolayı məyusluq getdikcə artmaqdadır. Söhbət həm də Qərbin, özəlliklə ABŞ-ın "demokratik Ermənistan"a hələ də layiqli siyasi və maddi dəstək verməməsindən gedir. Erməni mediasında və ekspert dairələrində son vaxtlar bu yöndə güclənən giley-güzar qənaətimizi daha da gücləndirir.**




İşğalçı ölkənin siyasi-hərbi rəhbərliyində, bütövlükdə inqilabçı toplumda hələ də belə bir illüziya yaşanır ki, dinc və "demokratik" hakimiyyət dəyişikliyi nəticəsində ölkənin beynəlxalq dayaqları xeyli möhkəmlənəcək, Ermənistanın bir əlindən Rusiya, o birindən isə, nəhayət, Qərb (ABŞ) tutacaq. Həmçinin Qarabağ məsələsində İrəvan öz işğalçı siyasətinə xüsusən də Qərbdən tutarlı dəstək alacaq.

*****

Lakin gözləntilərin heç biri reallaşmadı. ABŞ N.Paşinyan hökumətinə əl uzatmadı, çünki sonuncudan minimum gözlədiyini ala bilmədi. Bu da ən əvvəl Dağlıq Qarabağ məsələsində real irəliləyiş hesabına Ermənistanın Rusiyanın orbitindən uzaqlaşması ilə bağlı idi. Nikol Paşinyan nəinki Moskvanın cızdığı dairədən çıxmağa cürət etmədi, üstəgəl, Kremlə daha da yaxınlaşmaq kursunu tərcih etdi.

Maraqlıdır ki, heç Rusiya da indi Sərkisyan dönəmindəki kimi Ermənistanın əlindən möhkəm tutmayıb. Ona görə ki, Kreml "xalq baş naziri" Paşinyana və onun əsasən qərbçilərdən formalaşan komandasına ürək qızdırmır. Bu kimi sərt reallıqlar isə Ermənistan rəhbərinin xarici siyasət sahəsində manevr imkanlarını ciddi şəkildə daraldır. Hansı reallıqlar ki, sentyabrda ABŞ-a səfərə hazırlaşan Paşinyanın hansısa uğurlu nəticə ilə geri dönəcəyini istisna edir.

Ermənistanın ziyanına işləyən daha bir mühüm detal: Paşinyanın Amerika səfəri Azərbaycanın Qərb (ABŞ) üçün artan önəmi fonunda baş tutacaq. Erməni siyasi isteblişmentini və analitik çevrələrini narahat edən həm də budur.

*****

**"Biz hələ də 2016-cı il aprel "avantürası"na görə (dırnaqlar bizimdir - "YM") Azərbaycanın mühakimə olunduğunu görməmişik. Biz Ermənistanda və "arsax"dakı demokratiyaya Qərbin yetərli dəstəyi də görməmişik. Əksinə, biz görürük ki, məhz Bakı Qərb üçün bölgədə prioritet tərəfdaşa çevrilir, bu fonda isə bizim ölkəmizə münasibət pis istiqamətə dəyişir. Məsələn, hələ də Donald Trampla Nikol Paşinyan arasında normal bir görüş olmayıb".**

**"Yeni Müsavat"ın məlumatına görə, bu barədə Armenianreport.com-dakı məqalədə deyilir.**

**Müəllif ardınca son illər Ermənistana Amerika yardımlarının azalması, Azərbaycana isə artırılmasına diqqət yönəldib:** "Bu fonda ABŞ tərəfindən Azərbaycana hərbi köməyin həcmi də artır. Özü də bizim düşmənimizə təkcə Amerika kömək eləmir. Azərbaycanın Dövlət Sərhəd Xidməti (DSX) bu yaxınlarda Britaniya istehsalı olan snayper tüfənglərini silahlanmaya qəbul edib. Belə bir xəbəri az öncə Bakı KİV-ləri yayıb. Ehtimal var ki, britaniyalıların Bakıya dəstəyi bununla bitməyəcək. Bundan əlavə, xəbər yayıldı ki, Azərbaycan DSX-si İsrail istehsalı olan "Skylark" pilotsuz uçan aparatlar əldə edib. İsrail dövləti də Azərbaycanı silahlandırmağa davam edir. Beləcə, ortada bizə qarşı sərt və çox təhlükəli siyasətin olduğunu görürük. Ermənistan zərbə üçün olduqca həssas ölkəyə çevrilib. Bizə faktiki, hər tərəfdən zərbə gələ bilər".

*****

Belə "zərbələr"dən biri də dünən İrəvanın əsas müttəfiqi Rusiyadan gəlib. Belə ki, "Yeni Müsavat"ın erməni qaynaqlarına istinadən verdiyi xəbərə görə, Rusiya Baş Prokurorluğu Ermənistan Baş Prokurorluğunun kriminal oliqarxiyanın nümayəndələrindən olan və Rusiyaya qaçıb sığınan Miqran Poqosyanın İrəvana təhvil verilməsi barədə vəsatətini rədd edib. Bu haqda Ermənistan Baş Prokurorluğunun İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Arevik Xaçatryan bildirib.

Miqran Poqosyan "Panama ofşorları" qalmaqalından sonra diqqət mərkəzinə gəlmişdi. O zaman Poqosyan Ədliyyə Nazirliyinin Məhkəmə aktlarının məcburi icrası xidmətinə başçılıq edirdi. Bu da maraqlıdır ki, Rusiya Baş Prokurorluğunun imtina qərarı Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin İrəvan səfəri başa çatandan dərhal sonra açıqlanıb.

**"Görəsən, Patruşev İrəvanda nəyi müzakirə edib", - deyə 1 in.am portalının aparıcı yazarı Sərkis Arsruni bu xüsusda sual edib və Rusiya Baş Prokurorluğunun qərarını İrəvana vurulan şillə adlandırıb.**

"Moskva bu imtina ilə İrəvana qarşı nümunəvi siyasi demarş elədi. Belə bir demarşın anlamı odur ki, Putin postsovet məkanında avtoritar, korrupsiyalaşmış rejimlərin əsas himayəçisi olaraq qalır. Başqa tərəfdən, bu, Moskvanın Ermənistanın indiki hakimiyyətinə, erməni inqilabına münasibətinin göstəricisidir. Kreml anladır ki, bizim ölkəyə, onun hökumətinə heç də dost münasibətdə deyil. Nəhayət, bu, R.Köçəryanın həbsinə Moskvanın açıq cavabıdır. O da diqqətçəkəndir ki, Kreml bu addımı Vladimir Putinin İrəvan səfərinə cəmi iki ay qalmış atıb", - deyə müəllif vurğulayıb.

Ancaq Moskvanın əsas sürprizləri yəqin ki, qabaqdadır. Belə görünür ki, "Cücələr payızda sayılacaq..."

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 171 (7341) 20 avqust 2019

**Bir neçə ay gündəmi zəbt edən Türkiyənin Rusiyadan S-400 zenit-raketləri komplekslərini alması ajiotajı artıq aradan qalxıb. ABŞ-ın aylarla davam edən xəbərdarlıqlarına və hədələrinə baxmayaraq Türkiyə dirəniş göstərdi və geriyə addım atmadı. Bir sıra siyasi ekspertlər hesab edir ki, Vaşinqton reallıqla barışıb və məsələ tədricən arxa plana keçirilir.**

# S-400 ajiotajı səngidi - prosesdən kim qalib çıxdı?





**Nəzakət Məmmədova:** "Türkiyə-ABŞ münasibətlərinin gərginləşməsində S-400, sadəcə, bir element idi"
**Əhəd Məmmədli:** "Türkiyə güc, iradə göstərdikcə, Qərb də, Şərq də, Şimal da bunu qəbul edəcək, necə ki qəbul etdilər"

**Bəs bu qədər ajiotaja dəyərdimi?**

Politoloq Nəzakət Məmmədova "Yeni Müsavat"a bildirdi ki, Türkiyə-ABŞ münasibətlərinin gərginləşməsində S-400, sadəcə, bir element idi. Bu, münasibətlərin gərginləşməsinə əslində səbəb yox, onun nəticəsi sayılmalıdır. Əgər ABŞ və Türkiyə arasında münasibətlər bu dərəcədə pozulmasaydı, yəqin ki, Türkiyə hər zaman olduğu kimi bir çox silah növlərini, o cümlədən hava hücumundan müdafiə sistemlərini ABŞ, İsrail və NATO müttəfiqlərindən alardı: "Lakin ABŞ başqa ölkələrə, o cümlədən müttəfiqlərinə təzyiq vasitəsi kimi silah satışına embarqo məsələsindən istifadə edir. Türkiyə Rusiyadan əvvəl ABŞ-dan silah almaq üçün dəfələrlə müraciət etsə də, əksər hallarda rədd cavabı alıb, Konqresdə qadağalarla üzləşib. Halbuki Amerika tarixində elə hallar olub ki, Konqresin qadağa qoymasına baxmayaraq, nəinki müttəfiqlərə, hətta düşmən ölkələrə güclü silah satıldığı məlum olub. Məşhur İrangeyt qalmaqalı buna misal ola bilər. Türkiyənin Rusiyadan S-400 zenit-raket kompleksi alması təkcə silah ticarəti deyil, bu, həm də Türkiyədə ABŞ və NATO döneminin başa çata biləcəyinin, Türkiyənin atlantizmdən, talassokratiyadan uzaqlaşıb, tellurokratiyaya, avrasiyaçılıq siyasətinə tərəfdar olmasının təzahürüdür.

Türkiyəyə "Daha böyük Orta Şərq" layihəsinin həmsədrliyini təklif edən ABŞ bundan imtina etdi, ölkədə çevriliş cəhdi baş verdi, çevriliş cəhdində ittiham olunan Fətullah Gülən Türkiyəyə təhvil verilmədi və sair. Üstəlik, PYD/YPG-nin dəstəklənməsindən tutmuş Suriya ilə Türkiyənin sərhədində Aralıq dənizinə çıxışı olan Pentaqon bazalarının yerləşdirilməsi İncirlik bazasının statusuna təsir edirdi. Türkiyə və ABŞ, eləcə də İsrail arasında çoxsaylı ziddiyyətlər Türkiyəni Rusiyaya üz tutmağa, ondan S-400 almağa vadar etdi. Bu, ilk növbədə ABŞ və bəzi digər NATO müttəfiqlərinin, eləcə də İsrailin Türkiyənin bilavasitə sərhədlərində yaratdığı təhdidlə, eləcə də Yaxın Şərqdə qurulmaqda olan yeni dünya nizamı planlarından irəli gələrək Türkiyənin milli təhlükəsizliyinə yaradılmış təhdidlə bağlı idi".

**Politoloqun sözlərinə görə, NATO Nizamnaməsinin 5-ci maddəsinə riayət edilməyərək, bir üzvə qarşı olan təhdidin təşkilatın bütün üzvlərinə qarşı olması prinsipi görməzdən gəlindiyindən və müttəfiqlərdən dəstək görmədiyi üçün Türkiyə Rusiya ilə yaxınlaşmağa, müttəfiqlərinin yaratdığı hava hücumundan müdafiə təhlükəsinin qarşısını məhz S-400 vasitəsilə ala biləcəyi səbəbindən bütün etirazlara rəğmən Rusiyadan bu sistemləri almağa qərar verdi:** "ABŞ və bəzi ölkələr, o cümlədən NATO Türkiyənin bilavasitə sərhədlərində təhdid yaradarkən onun marağını əslə nəzərə almadılar, əksinə, onu çıxılmaz vəziyyətə salıb təhlükə qarşısında tərk-silah durumunda buraxmaq, bununla da ona istədikləri şərtləri diqtə etmək istədilər. Lakin Türkiyə Amerika ilə silah sövdələşməsinə gedib, onun şərtlərini qəbul etmək əvəzinə-bu şərtlərə ən başında Amerikanın yeni dünya nizamı planlarında onun yanında yer almaq və Yaxın Şərqdə Böyük İsrailin yaradılmasına xeyir-dua vermək daxil idi. Rəcəb Tayyib Ərdoğan yeni bir yol seçdi ki, bu da Rusiya ilə ittifaq, İslam dünyasının liderliyi ambisiyaları və Osmançılıq ideologiyasına qayıdışa dair idi. S-400 raketlərinin alınması isə bütün bu mürəkkəb proseslərdə aysberqin yalnız görünən tərəfi idi".

**Politoloq Əhəd Məmmədli isə bildirdi ki, Türkiyə dirəniş göstərdi və müasir dünyada tək-tük müstəqil dövlətlərdən olduğunu göstərdi:** "Amerika nə qədər güclü olsa da fakt qarşısında qalanda razılaşmağa məcbur olur. Fakt elə bir məfhumdur ki, onun qarşısında ən böyük güc belə razılaşmağa məcbur olur. Fakt özü bir gücdür. Türkiyə də yenidən dünya siyasətində faktlığını qaytarmaqdadır. Türkiyə Afrin məsələsində olduğu kimi, S-400-lər məsələsində də Amerikanı fakt qarşısında qoydu. Türkiyə artıq əvvəlki Türkiyə deyil, əvvəlki gücünə, nüfuzuna qayıtmaqdadır. Amerika, Avropa, Rusiya, Çin yenidən güclənən, nüfuzu artan Türkiyəni qəbul etməkdədirlər. Türkiyə güc, iradə göstərdikcə, Qərb də, Şərq də, Şimal da bunu qəbul edəcək, necə ki qəbul etdilər. S-400 məsələsi artıq arxada qaldı. Qardaş Türkiyənin növbəti hədəfi Şimali Suriyada tampon bölgənin qurulmasıdır. Artıq bu məsələdə də ABŞ Türkiyə ilə razılaşmağa məcbur olur. Sübut olundu ki, Türkiyənin dirəniş göstərməsi boşuna deyildi".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Patruşev İrəvana niyə gəlmişdi?..



**Hüseynbala SƏLİMOV**

**Təxminən həftə yarım bundan əvvəl Rusiyanın KİV-ləri xəbər yaydı ki, avqustun 12-13-də ölkələrinin Təhlükəsizlik Şurasının Katibi Nikolay Patruşev İrəvana rəsmi səfər edəcək. Səfər deyilən vaxtda, avqustun 13-də baş tutdu. Qeyd edək ki, rus mənbələrinin özləri bu səfərə çox böyük önəm verirdi.**

Birincisi, general N.Patruşev Rusiyanın hakimiyyət iyerarxiyasında, daha doğrusu, icra hakimiyyətinin strukturunda az qala, üçüncü şəxs hesab edilir, belə yüksək çinli məmurların isə Ermənistana səfərləri son vaxtlarda, xüsusən də "məxməri inqilab"dan sonra xeyli seyrəlibdir.

İkincisi, Rusiyanın mənbələri açıq şəkildə, birmənalı olaraq bəyan edirdilər ki, Patruşevin səfəri təqvim xarakteri daşımır, əksinə onunla bağlıdır ki, Paşinyan son vaxtlarda öz özfəaliyyətilə o qədər "uzaq"lara gedib ki, onun və komandasının təxribat dolu bəyanatları Kremlin özünü belə narahat etməyə başlayıb. Ona görə də Rusiya mənbələri bu səfərin ilk növbədə təftişedici xarakter daşıyacağını yazırdılar.

Xatırladaq ki, ötən həftə Xankəndində Paşinyan mitinq eyforiyasında, necə deyərlər, "populist tutma" vəziyyətində ona gəlib çatdı ki, Dağlıq Qarabağı Ermənistanın bir hissəsi elan etdi və aydın məsələdir ki, Kreml bundan çox narazıdır, çünki bu, təkcə ATƏT-in bütün Minsk institutuna, eləcə də həmsədrlərə qarşı etinasız münasibət deyildi və Rusiyanı təkcə bir həmsədr ölkə, həm də Azərbaycanın strateji müttəfiqi olan bir ölkə kimi pis vəziyyətdə qoymurdu, bu, həm də Moskvanın özünün otuz illik Dağlıq Qarabağ ssenarisinə qarşı etinasızlıq idi.

Üstəlik belə bəyanatlardan sonra rəsmi Bakının öz torpaqlarını qaytarmaq üçün ciddi şəkildə hərb variantlarını nəzərdən keçirməkdən savayı yolu qalmır, ona görə ki, N.Paşinyanın sərsəm bəyanatları dolayı yolla müharibəyə çağırışdır.

Amma Rusiya üçün ən əsası odur ki, Paşinyan belə bəyanatları ilə Kremlin regional geosiyasi maraqlarını nəzərə almır. Belə ki, Moskvaya görə, Dağlıq Qarabağ nə Azərbaycanındır, nə də ki, Ermənistanın və vəziyyət hələ xeyli müddət də belə qalmalı, Bakı və İrəvan eyni dərəcədə Dağlıq Qarabağa iddia etməli, Rusiyasa bundan istifadə edərək hələ bir xeyli müddət bu iki dövləti özünün orbitində saxlamalıdır.

Paşinyan isə özünün axmaq bəyanatları, necə deyərlər, "birmənalı yanaşma"ları (Rusiyanın da sevmədiyi budur, çünki Kremlin planına görə, Qarabağ hələ uzun müddət qeyri-müəyyən statusda qalmalıdır!) ilə Qarabağ münaqişəsinin adət olunmuş mənzərəsini pozur, Rusiyanın on illərlə regiona sırıdığı ssenariyə xələl gətirir - bu ssenarilər bir daha deyirik ki, birmənalı yanaşmaları nəzərdə tutmur, birmənalı şəkildə hər hansı tərəfin xeyrinə ola biləcək vurğular etmir və güman ki, hələ xeyli vaxt bundan sonra da etməyəcəkdir.

Ona görə də əslində Patruşevin erməni həmkarlarına deyiləsi sözü çox idi: ən azı ermənilərə xatırlatmaq lazım idi ki, Ermənistanın onun üçün cızılan sərhədlərdən kənara çıxması və proseslərin adət olunmuş inkişaf ssenarisəndən uzaqlaşması Moskvada qəti təqdir olunmur.

Burada M.Saakaşvilinin Gürcüstan prezidenti kimi BMT Baş Assambleyasının sessiyasındakı son çıxışı yada düşür. O, sessiyada bir sual vermişdi: "Rusiya istəyirmi ki, Dağlıq Qarabağ Azərbaycana qaytarılsın? Və yaxud o, razı olarmı ki, Dağlıq Qarabağ Ermənistanın bir hissəsi olsun?". Sualların cavabını Saakaşvili özü verdi:" Yox, Rusiya nə bu, nə də digər variantı istəmir, ona görə ki, bu variantlardan biri seçilsə, Dağlıq Qarabağ münaqişəsi özünün regional geosiyasi missiyasını itirər, daha Bakı və İrəvan üçün tələ rolunu oynamaz".

Düşünürük ki, o qədər dəqiq deyilib ki, əlavə şərhə yer qoymur: kimsə Rusiyanın regional siyasəti haqqında açıq danışa bilər, kimsə isə yox, di gəl, hamı ürəyində bilir ki, bütün post-sovet məkanındakı münaqişələrin arxasında Kreml dayanır, onları qızışdırır və idarə edir.

Bir daha qeyd edək ki, N.Paşinyan bəyanatları ilə təkcə Bakını ciddi seçim qarşısında qoymur, həm də Kremlin otuz illik "gizlinlər"ini ayaqlayır, sanki erməni baş naziri onlardan xəbərsizdir, sanki bilmir ki, onun ölkəsi bu prosesdə köməkçi bir alətdir və bundan artığına iddia etmək haqqı və ya hüququ yoxdur.

Odur ki, Rusiya generalının erməni xidmətçilərilə söhbəti əvvəldən çox ciddi olmağı vəd edirdi: ya Paşinyan da Koçaryan və Sarqsyan kimi onun üçün nəzərdə tutulmuş rolu oynamalı və Kremlin ssenarilərinin hər hərfinə əməl etməlidir, ya da Kreml özünün Ermənistanın yeni hakimiyyətinə münasibətini birmənalı şəkildə dəqiqləşdirməli olacaq - xüsusən də nəzərə almaq lazımdır ki, Paşinyan digər müstəvilərdə də çox pis rəqqasdır. Bundan başqa, Moskva özünün digər tələblərini də unutmayıb: söhbət R.Koçaryanın azad edilməsindən və əlbəttə ki, yeni baş nazirin gizli avro-ehtiraslarından gedirE

Amma təəccüblüsü bu oldu ki, Patruşevin səfərilə bir vaxtda Ermənistanın xarici işlər naziri də Paşinyanın Xankəndidə səsləndirdiyi bəyanatlara dəstək verdi. Bu isə onu deməyə əsas verir ki, Paşinyan Qarabağı Moskvanın nəzarətindən çıxarmaq və otuz illik oyunu bitirmək istəyir, çünki Dağlıq Qarabağ məsələsi onun daha sərbəst siyasət yürütmək yolunda qarşısında dayanan ən böyük maneədir.

Həm də erməni cəmiyyəti Koçaryanı və Sarqsyanı Dağlıq Qarabağ məsələsini uzatmaqda, "hərbi üstünlük"ləri siyasi- diplomatik nəticələrə çatdıra bilməməkdə qınayırdı. Görünür, N.Paşinyan bu məsələni də həll etməyə, necə deyər, bir güllə ilə iki dovşan vurmağa qərar verib...

YENİ MÜSAVAT
N 171 (7341) 20 avqust 2019

# Problemlər girdabındakı Şabran

## Bakıdan 1 saatlıq məsafədə yerləşən rayonun adına yol nişanlarında rast gəlinmir; əhali problemlərin həlli üçün kömək istəyir...

**Bakıdan cəmi 1 saatlıq məsafədə yerləşən Şabran (keçmiş Dəvəçi - E.S.) rayonuna həftəsonu səfərimizdə böyük bir nöqsan diqqətimizi çəkdi. Yolboyu müşahidə etdik ki, bir yerdə belə Şabran sözü yazılmayıb. Əgər yolu tanımayan biri olsa ölkənin hansı tərəfinə getdiyini, bu rayonu necə tapacağını müəyyən edə bilməz. Təsəvvür edin ki, bir rus və ya avropalı turist avtomobillə Şabrana gəzməyə gedir və 120 kilometrlik yoldakı yol nişanlarında bir dəfə də rayonun adına rastlamır...**


















***

Şimal zonasına gedən istiqamətdə Siyəzən, Xızı, Xaçmaz, Gəndob, Quba, Qusar yazılan lövhələrlə qarşılaşacaqsınız, yalnız Şabran adı görməyəcəksiniz. Yalnız rayona çathaçatda, bir addımlığında işarə verir ki, Xaçmaza yox, Şabrana dönün.

İşin ən pis tərəfi isə Şabrana elə bir döngə qoyulub ki, yüksək sürətlə hərəkət edən avtomobil qəfil dönüş etməli olur, bu zaman qəza riski yaranır, sürəti tormozlamaq çətinləşir.

Yəni yaxşı olardı döngə ilə bağlı xəbərdarlıq daha uzaqdan qoyulsun və sürücü avtomobili Şabranın girişinə dönənə qədər nizamlamaq imkanında olsun.

Şabranda olarkən söhbətləşdiyimiz yerli sakinlər də jurnalist olduğumuzu öyrənəndə xahiş elədilər ki, bu xırda görünən məsələni müvafiq strukturların nəzərinə çatdıraq. Onların sözlərinə görə, həm Şabrana döngə sürət həddi hesablanaraq qoyulsun, həm də rayonun adı yol boyu bir-iki lövhədə göstərilsin. Sürücülər xatırladırlar ki, eyni problem yeni Ələt-Astara yolunda varıydı. Bakıdan Astaraya qədər heç bir lövhədə Yardımlının adına rast gəlinmirdi.

Bu yaxınlarda məsələ həllini tapıb və Yardımlıya gedən sürücü bilir ki, hansı istiqamətdən dönmək, Masallıya daxil olub bu rayona getmək lazımdır. Sanki Azərbaycan ərazisində belə bir rayon yoxdur və xəritədən silinib.

**Ona görə də camaat Şabrana ayrı-seçkilik qoyulmamasını nəzərə almağı diqqətə çatdırır. Sakinlər deyirlər ki, Şabranın əvvəlki adı Dəvəçi lövhələrdə olub. Rayonun adı rəsmi şəkildə dəyişdikdən sonra yollarda lövhələrə düzəliş olunmayıb.**

"Siyəzəndən sonra bizim rayon gəlir. Amma adı heç yerdə yazılmayıb. Elə bil ki, Şabran olmayıb, ya da üzərindən hoppanıb gedirsən. Bizim bölgə respublikaya tanınmış xadimlər yetişdirib. Tofiq Quliyev kimi görkəmli bəstəkar bu rayondan çıxıb. Ona görə bu texniki problemi aradan qaldırmaq elə də çətin iş deyil, xahiş edirik ki, müraciətimiz eşidilsin", - deyə Şabran sakini Adil Əzizov bildirir.

***

Rayonun mərkəzinə daxil olduqdan sonra içəridəki problemlərlə də tanış oluruq. Şabranda heç bir yenidənqurma işləri aparılmayıb. Təkcə bəzi küçələrin yollarına əl gəzdirilib. 10 il qabaq, 2009-cu ildə gördüyüm Şabrandan heç nə dəyişməyib. Hətta kosmetik də olsa bəzi abadlıq işləri həyata keçirilə bilərdi. Lakin bu müddətdə sabiq başçı Novruz Novruzov əlini ağdan qaraya vurmayıb. Onun Siyəzənə icra başçısı getməsi, yerinə Siyəzəndən həmkarı Asif Hüseynovun təyin olunması da ciddi dəyişikliyə səbəb olmayıb.

Sakinlər deyirlər ki, parklar, küçələr zülmətdir, axşamlar qaranlıq olur. Onların dediyinə görə, İH-nin Şabran Şəhər İcra Nümayəndəliyi tərəfindən elan olunan tenderlərdə "Toğrul-2011" MMC qalib olub.

Adıçəkilən şirkət 2011-ci ildə təmir işlərinin satın alınması ilə bağlı 34 872 manatlıq, 2012-ci ildə Şabranda işıqlandırma sisteminin təmir işlərinin satın alınması ilə bağlı 37 153 manatlıq, 2013-cü ildə yenidən Şabranda işıqlandırma işlərinin satınalınması ilə bağlı 37 040 manatlıq, 2014-cü ildə Şabranın abadlaşdırılması üçün bəzək ağacları və gül kollarının satın alınması ilə bağlı 14 935 manatlıq, 2015-ci ildə isə yenidən Şabranda işıqlandırma işləri ilə bağlı 34 928 manatlıq müsabiqələrin qalibidir. Camaat şikayətlənir ki, nə kəramətdirsə, həmin 5 il ərzində bir rayonun işıqlandırılması həyata keçirilməyib, Şabran hələ də qaranlıqdadır.

**Onlar danışır ki, keçmiş başçı N.Novruzovun vaxtında qədim məzarlığın bir hissəsi satılıb, Şəhidlər Xiyabanının bir tərəfi fərdi yaşayış evlərinin tikintisinə yönəldilib.**

"Bizim rayona baxılmır. Rayonun heç olmasa girişini abadlaşdırmaq, əzəmətli düzəltdirmək olardı, qoy qonaqlar gələndə yaxşı görünsün. Məsələn, Xaçmaz, Quba Şabrandan daha çox inkişaf edib. Bizdə küçələr, parklar pis gündə, işıqlanma yox, təzəlikcə bir-iki küçə asfaltlanıb, qalanları bərbad vəziyyətdədir. Yəni Şabranda əsaslı yenidənqurmaya ehtiyac var" - deyə, rayon sakini Vasif söyləyir.

Onun dediyinə görə, Nizami, Füzuli, Vasif Adıgözəlov küçələri bərbad gündədir, qışda adamlar palçığa batır.

Bundan başqa, antisanitariyadır, təmizliyə riayət edilmir, zibil qutuları azdır, zibil dağlarına tez-tez rast gəlmək olur, vaxtında götürülmür.

***

Şabranda onu da öyrənirik ki, Əmbil gölünə yol çəkiblər. Bu da əhalidə narazılıq yaradıb. Çünki bir qrup oliqarx Əmbil gölünə gedən meşəliyi qırdırıb yol açıb.

**Burada hotel, istirahət mərkəzi olacağı deyilir. Sakinlər isə ekoloji cəhətdən zərər vurulması kimi qiymətləndirirlər:** "Ümumiyyətlə, Əmbil gölünə insan ayağı asanlıqla dəyəcəksə, ərazi zibilxanaya çevriləcək, ekoloji sistem pozulacaq. Bu ərazidən axan, təbii mənbəyini dağlardan, əsas da bulaq sularından götürən Zeyvə çayı çirklənəcək. Bu çayın üzərindəki meşə zolağını qırıblar. Bu da çayda buxarlanmaya səbəb olur. Çayın üzərindəki Zeyvə, Kilvar, Pirəmsən, Ərəblər kəndlərində çoxsaylı şəxsi təsərrüfatlar var. Amma bir neçə ildir çay Zeyvə kəndinin aşağı hissəsinə yay aylarında güclə çatır".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**
**Şabran-Bakı**

YENİ MÜSAVAT
N 171 (7341) 20 avqust 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənistan üzərindəki “Domokl qılıncı” - həlli uzanan Qarabağ problemi

Rəsmi İrəvanın məsələni arxa plana keçirmək cəhdi işğalçı ölkəyə yalnız yeni problemlər vəd edir; Nikol Paşinyanı sələflərinin taleyi gözləyir, əgər...; **erməni siyasi şərhçi:** “Baş nazir ciddi siyasi qərarlar əvəzinə özünün piarı ilə məşğuldur...”

**Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndindəki “miatsum” sərsəmləməsindən sonra Bakı və İrəvan arasında sülh danışıqlarının nə vaxt bərpa ediləcəyi müəmma olaraq qalır. Sentyabrın 20-də Nyu-Yorkda BMT Baş Məclisinin növbəti illik sessiyası başlayacaq. Zəif olsa da, belə ehtimal var ki, sessiya çərçivəsində ATƏT-in Minsk Qrupu həmsədrləri tərəflər arasında xarici işlər nazirləri səviyyəsində görüşə cəhd edə bilərlər. Hərçənd məntiqlə ona qədər İrəvan rəsmilərinin sülh prosesini mənasız edən son bəyanatlarına həmsədrlər hansısa şəkildə reaksiya verməlidirlər.**




Bu reaksiya həm də ona görə vacibdir ki, Ermənistan rəhbərliyi beynəlxalq hüquq, BMT Nizamnaməsi kimi norma və sənədlərə tüpürməyə özündə asanca cəsarət tapa bilməsin, Nikol Paşinyan və onun güc nazirləri verdikləri avantürist, təxribatçı bəyanatların məsuliyyət yükünü və onların mümkün nəticələrini dərk eləsinlər.

*****

Əlbəttə ki, işğalçı ölkə rəhbərliyinin özünü bunca arxayın aparması və cəzasız hiss eləməsi ilk növbədə Rusiyaya görədir. Rəsmi Moskvanın hələ də işğalçı ilə işğala məruz qalanı öz adı ilə çağırmaması, üstəlik, Ermənistana hərbi-siyasi dəstək verməsi, silahlanma məsələsində təcavüzkar ölkənin Azərbaycandan geri qalmaması üçün əlindən gələni etməsi və ona vaxtaşırı ucuz qiymətə silahlar satmasıdır. Halbuki Kreml istəsəydi, Dağlıq Qarabağ münaqişəsinin dinc həllini sürətləndirə bilərdi. Təəssüf ki, postsovet məkanındakı münaqişələrlə, o sırada Qarabağ ixtilafı ilə bağlı həlelik belə bir hal qeydə alınmayıb.

“Rusiya regionda konfliktin nizamlanması və Dnestryanı bölgənin suveren, neytral və bloklara qoşulmayan Moldovanın tərkibinə qayıtmasının tərəfdarı kimi çıxış edir”. “Yeni Müsavat”ın Rusiya qaynağına istinadən verdiyi məlumata görə, bu sözləri Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ümumrusiya Gənclər Təhsil forumunda çıxışı zamanı deyib.

İlk baxışda praqmatik yanaşmadır. Moskvanı həmişə ən çox narahat edən məsələ onunla həmsərhəd postsovet ölkələrin Qərb bloklarına (Avropa Birliyi, NATO) qoşulmasınadan yanadır. Gürcüstan və Ukrayna timsalında bunun əyani şahidiyik. Lakin konkret olaraq, Azərbaycan daim Rusiyanın maraqlarını nəzərə alıb, heç bir bloka qoşulmayıb, hətta forpost Ermənistandan fərqli olaraq, Avropa Birliyi ilə assosiativ saziş də imzalamayıb hələ ki.

Bununla belə, Moskvanın Moldovaya (Dnestryanı məsələyə) yanaşması, göründüyü kimi, Azərbaycana və Qarabağ məsələsinə yanaşmasından fərqlənir - təbii ki, mənfi istiqamətə və Azərbaycanın ziyanına. Belə “ikili standart” isə ən çox status-kvonu uzatmağa çalışan Ermənistana sərf edir. O sırada Moskva ilə sələflərindən fərqli olaraq, bir elə isti münasibəti olmayan Paşinyan Rusiyanın obyektiv olmayan vasitəçiliyinə arxayınlaşaraq, vaxtaşırı Qarabağ mövzusunda populist və destruktiv bəyanatlar verir. Bununla özünün inqilabsonrası reytinqinin zəifləməməsinə çalışır.

Lakin Ermənistanın “inqilabçı rəhbəri” də sələfləri kimi anlamaq istəmir ki, onun reytinqi qısa zamanda düşməyə məhkumdur, çünki vəd olunan iqtisadi islahatlar Qarabağ məsələsində ciddi dönüş olmadan, blokada rejimi və müharibə təhlükəsi aradan qalxmadan, qonşu Türkiyə və Azərbaycanla əlaqələr qaydaya salınmadan mümkün deyil. Paşinyan isə inadla bunun əksini sübut eləməyə çalışır. Nəticə ortadadır: hakimiyyətdə olduğu 15 ayda, erməni ekspertlərinin özlərinin də qeyd etdikləri kimi, ölkədə sosial-iqtisadi durum, əhalinin güzəranı yaxşıya dəyişməyib, Ermənistandan kütləvi köç azalmayıb.

*****

**“Ermənistanın inqilabçı hökumətinin əslində nə ilə məşğul olması sualı dünən ortaya çıxmayıb. Verilən vədlər çox idi: iqtisadi inkişaf, korrupsiya ilə mübarizə, həmvətənlərin öz tarixi vətənlərinə repatriasiyası, nəhayət, Qarabağ nizamlanmasında sıçrayış. Ancaq istənilən dəyişiklik və islahat üçün sabitlik lazımdır - hansını ki, inqilabi hərəkatın respublikanın hüdudlarından kənara yayılacağına ümid edən baş nazir Nikol Paşinyan xalqa vəd eləmir”.**

**“Yeni Müsavat”ın məlumatına görə, erməni siyasi şərhçi Mamikon Babayan “Vestnik Kavkaza” portalında “Ciddi siyasət əvəzinə piar” sərlövhəli təhlili məqaləsində belə yazır.**

Məqalədə daha sonra deyilir: “Paşinyanın reytinqi tədricən düşməkdədir. O da özünün əvvəlki populyarlığını qaytarmaq üçün həm də piar-aksiyalardan istifadə edir. Bu xüsusda Paşinyanın az öncə İrəvanda iş vaxtı xarici turistlərlə avtobusda gəzintiyə çıxması erməni cəmiyyətində açıq-aşkar məyusluq doğurdu. İnsanlarda həm də şübhə yarandı ki, baş nazir işsizlikdən əziyyət çəkir, yaxud elə həmin o turizm sektorunda islahatlar aparmaq əvəzinə, ”Aykakan Jamanak" qəzetindəki redaktor təcrübəsindən yararlanaraq, özünün siyasi karyerasını “redaktə” edir"".

**Müəllifə görə, Ermənistanda mürəkkəb klan sistemi mövcuddur və onu adlamaq üçün Paşinyan elitaların dəstəyini qazanmaq lazımdır.** “Ancaq baş naziri belə sadə olmayan məsələdə dəstəkləmək istəyənlər çox deyil. O səbəbdən də o, xalqın dəstəyinə ümid edir. Köhnə rejimin mirasları çoxdur - yüzlərlə, hətta minlərlə aparat işçisi artıq özünü yaratma mexanizmi işləyib hazırlayıb. Ona görə də Nikol Paşinyana hətta Nazirlər Kabinetinin başçısı ola-ola ölkə parlamentində özünü müxalifətdən olan baş nazir kimi təqdim eləmək daha məqbuldur, nəinki qeyri-populyar qərarlar qəbul eləmək. Başqa yandan, aktual problemlərin həllindən yayınmaqla Paşinyan özü üçün vaxtilə devirdiyi adamlara çevrilmə riski yaradır”, - deyə erməni təhlilçi sonda vurğulayıb.

Bu perspektivdən qaçmağın yeganə yolu isə Ermənistanı “Qarabağ problemi” adlı böyük yükdən xilas eləmək, yeni işğalçı ölkənin inkişafı önündə əsas əngəli götürüb iqtisadi inkişafın önünü açmaqdır. Əks halda, Paşinyanı sələflərinin taleyi gözləyir. Qarabağ problemini kamifuljay edib kənara qoymaq, yaxud guya artıq belə bir problemin mövcud olmadığı, hər şeyin bitdiyi görüntüsünü yaratmaq Ermənistanın vəziyyətini daha acınacaqlı edəcək. Qarabağ məsələsi artıq çoxdan Ermənistan iqtisadiyyatı üzərində “Domokl qılıncı”na çevrilib...



## Ermənistan Rusiyaya ən çox borcu olan ölkələr sırasında

**Rusiyaya ən çox borcu olan MDB ölkələri Belarus, Ukrayna və Ermənistandır. RBK xəbər verir ki, 17 dövlət Rusiyaya ümumilikdə 27 milyard dollar borc qaytarmalıdır.**

Belarus, Ukrayna və Ermənistanın Rusiyaya müvafiq olaraq 7,5 milyarddan çox, təqribən 3,7 milyard dollar və 300 milyon dollar borcu var. MDB-dən kənarda Rusiyaya ən çox borcu olan ölkələr isə Venesuela və Kubadır.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 171 (7341) 20 avqust 2019

# Putinin 25 avqust qərarı: müxalifət qarşısında geri çəkilir, yoxsa...

## Elşən Mustafayev: "Navalnı müxalifət lideri olaraq şişirdilir"

## Əziz Əlibəyli: "Putinin əleyhinə elə də böyük etiraz formalaşmayıb"

**Rusiyada Moskva Dumasına seçkilərdə müxalif şəxslərin namizədliklərinin qeydə alınmamasına etiraz olaraq, ölkə müxalifətinin keçirdiyi aksiyalar qarşısında hökumət geri addım atıb. Belə ki, müxalifətin yürüşsüz mitinq keçirməsinə icazə verib. Aksiya avqustun 25-də Saxarov prospektində olacaq.**

Qeyd edək ki, aksiyanın yürüşsüz şəkildə yalnız Saxarov prospektində mitinq kimi keçirilməsinə icazə verilib.

Ekspertlər Vladimir Putin iqtidarının bununla yeni bir proses başlatdığını ehtimal edirlər. Bununla müxalifətə doğru açılım siyasətinə start verildiyi qeyd olunur.





**AMİP-in beynəlxalq əlaqələr üzrə katibi Elşən Mustafayev gedən müzakirələrə bu cür şərh verdi:** "Aleksey Navalnının rəhbərlik etdiyi müxalifət nümayəndələrinin həftələrdir etirazlarının əsas səbəbi Moskva Dumasına seçkilərdə xeyli sayda müxalif mövqeli müstəqil namizədlərin qeydə alınmaması idi. Keçən həftə keçirilən mitinqin tələbi də məhz həmin namizədlərin qeydə alınmaması ilə bağlı idi. Həmin vaxt mitinqə icazə verilmişdi, amma mitinqdən sonra razılaşdırılmayan yürüş güc tətbiq edilərək dağıdıldı. İlk baxışda ayın 25-də yeni mitinqin keçirilməsinə icazə verilməsi təəccüblü görünə bilər. Lakin bir sıra detalları nəzərə alsaq, Putin iqtidarının növbəti mitinqə icazə verməsinin səbəblərini görə bilərik. Birincisi, sentyabrın 8-də seçkilər olacaq. Qanunlara görə, namizədlərin yenidən qeydə alınması, şikayətlərlə bağlı müddətlər bitib. Bunu Rusiya MSK-nın sədri Ella Panfilova da deyib. İkincisi, keçən həftə keçirilən yürüşdən sonra mitinqin təşkilatçılarının əksəriyyəti həbs olunub və hələ də müxtəlif müddətlərlə həbsdədirlər. Digərləri ilə bağlı qeyri-rəsmi tədbirlər görülməkdədir. Yəni hesab edirlər ki, keçiriləcək mitinqin kütləviliyi bu dəfə daha az olacaq. Və nəhayət, Rusiyanın demokratik cəmiyyət olmasını dünyaya təbliğ etmək məqsədilə özü üçün ciddi təhlükə törətməyəcək bu mitinqə icazə verilməsi zəruri idi. Mənə elə gəlir ki, Navalnının müxalifət lideri olaraq şişirdilməsi Putin komandasının marağındadır. Amma bu o demək deyil ki, Navalnı Kremlin cib müxalifətidir. Sadəcə, daha ciddi və güclü müxalifət liderinin yaranmasının qarşısını almaq üçün bu addımı atırlar. Navalnı nə qədər kəskin tənqidçi, Putin komandasının korrupsiyasını araşdıran və ya yan siyasətçi olsa da, bir sıra parametrlərinə görə ümumrusiya lideri olması bir qədər çətindir. Amma Rusiyada demokratik düşüncəli insanların sayı digər postsovet ölkələrindən həmişə çox olub. Bu istər Yeltsen, istərsə də Putin dönəmində olub. Son illər Rusiyada bütün mərkəzi tv-lər və digər böyük KİV-lər Kremlin nəzarətinə keçdiyindən təbliğat yalnız bir nəfərin nüfuzunun yüksəldilməsi, ona qarşı olan hamının vurulması istiqamətində qurulub. Əslində isə əhalinin əksəriyyəti mövcud idarəetmədən və problemlər içində olduğundan hakimiyyətdən narazıdırlar. Bu narazılığın təşkilatlanmış halda bütün Rusiyada özünü göstərməsi üçün əlavə olaraq ABŞ və Qərblə bağlantısı olmayan güclü liderlərin ortaya çıxmasına ehtiyac var. Çünki narazı çoxluğun mövcud liderlərin ətrafına toplaşmamasının əsas səbəbi həmin liderlərin Qərb dairələri ilə isti münasibətlərdə olmasıdır. Rus xalqının bu mövzuda həssas olduğunu bilən iqtidar bütün imkanları ilə bunu daha da şişirdərək yayır. Proqnozlar və müşahidələr isə göstərir ki, hakimiyyət daxilində olan bir sıra güclər Putindən sonrakı dövr üçün hazırlıqlar aparır və zamanı gələndə açıq şəkildə etirazçıların önünə çıxa bilərlər.

Həm Çar Rusiyası zamanı, həm də Sovetlər İttifaqı dönəmində demokratik hərəkat Piterdən, Moskvadan başlayıb inkişaf edib. Bir məsələni də unutmaq olmaz ki, Rusiya nə Ukraynadır, nə Gürcüstan, nə də Moldova. Bu ölkələrdə olduğu kimi hansısa siyasətçinin gedib Rusiyada siyasi proseslərə nəinki qarışmasına, hətta adi dəstək verməsinə belə imkan verilməz. Mənə elə gəlir ki, oradakı prosesləri rus xalqının öz öhdəsinə buraxmaq lazımdır. Belə məsələlərdə onlarda presedentlər çox olub və təcrübələri də kifayət qədərdir".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli:** "Müasir Rusiya tarixi boyunca ilk dəfə idi ki, 2018-ci ilin sonlarından etibarən, xarici siyasətinə görə tətbiq edilmiş sanksiyalardan xalq əziyyət çəkməyə başladı. Ənənəvi rus baxışına, imperiya vətəndaşı düşüncəsinə malik olan sadə rus ilk dəfə cibinin boşluğunu hiss etdi. O baxımdan Rusiyada narazı kütlələr artmağa, meydana çıxaraq, səsini eşitdirməyə başladı. 2018-ci ili xarici siyasətdə uğur kimi hesab edən Kreml 2019-cu ilin başlanğıcından vilayətlərdə, muxtar respublikalarda daxili düşmən ovuna başladı. Məhz bu il Putinin əsas məqsədi mərkəzi hakimiyyəti daha da gücləndirməkdir. Rusiya prezidentinin bir də gözlənilmədən meydana çıxan müxalifət mitinqləri kimi problemi də yarandı. Onsuz da zəif olan müxalifətin namizədlərinin seçkilərə buraxılmaması həm yerli əhalinin, həm müxalifətin, həm də Rusiyaya təsir imkanı axtaran Qərb mərkəzlərinin işinə yaradı. Amma real təsbitlər onu göstərir ki, hazırda Putin əleyhinə elə də böyük etiraz formalaşmayıb. Əgər formalaşarsa, o zaman Putinin hansı addım atacağının mesajını hamı mitinq iştirakçılarının döyülməsində anlamamış deyil. Hazırda bu proseslər keçici xarakter daşıyır. Putini düşündürən isə bu cür mövsümi etirazlar yox, varis planıdır. Hakimiyyəti gələcəkdə rahat və təhlükəsiz formada ötürmək üsulları ilə məşğuldur. Bu baxımdan, Putin istisna deyil ki, demokratiya görüntüsü yarada, müxalifətin performansı üçün meydan aça bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# "Bizim regionda demokratikləşmə ağır gedəcək"

## Hikmət Hacızadə sabiq prezidentlərin ölkəsində istintaqa cəlb edilməsi haqda nə düşünür?

**Almazbek Atambayev, Petr Poroşenko, Mixail Saakaşvili, Robert Köçəryan... Onların öz ölkələrində həbsi, barələrində cinayət işi başladılması keçmiş SSRİ məkanında demokratik proseslərin açıq şəkildə "belini qırmaqdadır". Sabiq prezidentlərin məhşər ayağına çəkilməsi bir dərs oldu ki, bu coğrafiyada seçkilərlə iqtidarı təhvil vermək "ağılsızlıqdır".**



Nəticə göz önündədir - Atambayev türmədə, Saakaşvili ölkəsinə qayıdarsa həbs oluna bilər, Poroşenkonun üzərində cinayət işi var...

Və keçmiş sovet respublikalarında demokratiya istəyən xalqların arzularının üstündən bir qara xətt çəkilməkdədir. Ola bilsin ki, demokratik proseslərin ləng gedişi bu mənada rol oynayıb. Lakin həqiqət göz deşir, yaxşılıq etmiş prezidentlər pis adamlara çevrilirlər, ölkələri onlara zindan olur.

Təbii ki, bu sözləri Köçəryan rejimi haqda söyləmək olmaz. Onun iqtidarı dövründə Ermənistanda heç bir siyasi-iqtisadi inkişaf olmayıb, demokratiya irəliləməyib.

Amma sabiq prezidentlərdən biri kimi onun da yolu mühakimədən keçməkdədir. Bu, qisasçılıq ənənəsinin təməlinin qoyulması və hakimiyyətin dinc, seçki yolu ilə ötürülməsi prosesinin demontaj edilməsidir. Çünki bundan sonra gələcək hakimiyyət də adekvat davranacaq, sələfini dar ağacına çıxaracaq.

Necə ki, Yanukoviçi Ukraynadan didərgin salan Poroşenkonun özünə Zelenski ölkəsinin dörd bir yanını zindan edib, barəsində istintaq gedir.

Gürcüstanı ağ günə çıxarmış, aşağıları rüşvət bəlasından xilas eləmiş, radikal islahatlar həyata keçirmiş, ölkəni tam bir oturuşmuş vəziyyətə gətirmiş, relsə salmış Saakaşvili də vətəninə qayıda bilmir, üzərində korrupsiya ittihamı ilə cinayət işi var.

Halbuki "Mişa"nın xidmətlərinə görə ona heykəl qoymalıydılar, Gürcüstanda sərbəst hərəkətinə, yaşamasına dövlət özü şərait yaratmalıdı.

**Azərbaycanın Rusiyada səfiri vəzifəsində işləmiş, "Demokratiya: Gediləsi uzun bir yol" kitabının müəllifi Hikmət Hacızadə hesab edir ki, məsələ sovet irsində qaynaqlanır. Onun "Yeni Müsavat"a dediyinə görə, bu irsdən az yiyələnən Şərqi Avropa ölkələrində belə hallar olmadı:** "İslahat aparmaq çətindir. 100 liderdən biri uğur qazanır. Məsələn, Atatürk, I Pyotr kimi...

Amma əksəriyyəti müqavimətlə qarşılaşır. Çünki sovet irsi axmaq bir ənənədir. Millətin nizam-intizamı, iş praktikası pozulmuşdu. İndi islahatçı oğurlama deyəndə müqavimətlə üzləşir, ondan soruşurlar ki, 3 nəsildir dağıdırıq, niyə talan etməyək?"

**Politoloqun fikrincə, yeganə yol seçkidir ki, məsələni nisbətən yüngülləşdirir:** "Əgər seçkisiz hakimiyyətə gəlsən, onu ötürən zaman varis məsələsi çətin olacaq. Seçki isə islahatçını qoruyur. Məsələn, Saakaşvilini xeyli dərəcədə qorudu. Əgər o, diktatorluq eləsəydi, onu dünya dəstəkləməzdi. İndi Saakaşvili dünyada sərbəst gəzir.

Gürcüstanda islahat sevməyən qüvvələr iqtidara gəldi, onu günahkar elan etdilər. Amma dünya bu ittihamları qəbul eləmədi və hər bir islahatçı onu işə dəvət edir".

**H.Hacızadənin sözlərinə görə, bizim regionda demokratikləşmə ağır gedəcək:** "Rusiyanın rolunu görməliyik. Rusiya ətrafında ondan asılı ölkələr var. Onlar strateji maraqlara görə Rusiya ilə bir yerdədir. Rusiya çöksəydi, ətrafındakı ölkələr düzələrdi. Amma Rusiya güclüdür. Hətta Çin belə onun kimi siyasət aparmır. Yəni başqa ölkələrin işinə qarışmır, üsyanlar qaldırmır".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 171 (7341) 20 avqust 2019




# İşsizlərin problemi: qeydiyyat və sığorta ödənişi





**Mirvari Qəhrəmanlı:** "Məşğulluq mərkəzlərindən göndərilən şəxslərlə mülki müqavilə bağlanır"

**Sahib Məmmədov:** "İşsizlik sığortası almaq hüququ kəskin məhdudlaşdırılıb"

**ƏƏSMN:** "Göndərilən işçilərin hamısı ilə əmək müqaviləsi bağlanır"

**Azərbaycanda işini itirən şəxslərin məşğulluq mərkəzlərində işsiz kimi qeydiyyata düşməsi ilə bağlı həmişə problemlər yaşanıb. Uzun illərdir vətəndaşlar məşğulluq mərkəzlərinin bilərəkdən onlara aşağı maaşlı, yaxud yolu uzaq olan iş yerləri təklif etdiyini, qəbul etmədikdə isə işaxtaran kimi qeydiyyata almaqdan imtina olunduğunu bildirirlər. Müstəqil ekspertlər də məşğulluq mərkəzlərinin işsiz kimi qeydiyyata alınan insanların sayını azaltmaq üçün bir sıra baryerlər yaratdıqlarını deyirlər. Buna görə də Azərbaycanda rəsmi qeydiyyatda olan işsizlərin sayı bir qayda olaraq mötəbər məlumat kimi qəbul edilmir.**

Son illərdə məşğulluq mərkəzlərinin fəaliyyətində şəffaflığın artırılması, iş yerini itirən vətəndaşların işsizlikdən sığorta haqqı ilə təmin olunması istiqamətində bir sıra addımlar atılıb. Bu addımlar arasında işsiz kimi qeydiyyata alınma prosesinin asanlaşdırılması, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İşsizlikdən Sığorta Fondunun yaradılması və digərləri var. Fond Azərbaycanda rəsmi əmək müqaviləsi əsasında işləyən vətəndaşların maaşından ödənilən (0,5 faiz işləyən, 0,5 faiz işəgötürən) vəsaitlər hesabına formalaşır. Vergilər Nazirliyinin yaydığı məlumata görə, bu ilin 6 ayında Azərbaycanda işsizlikdən sığorta haqları üzrə daxilolmalar 46,6 faiz artaraq 48 milyon manat təşkil edib.

ƏƏSMN İctimaiyyətlə əlaqələr şöbəsindən "Yeni Müsavat"a verilən məlumata görə, 2018-ci ildə Dövlət Məşğulluq Xidməti tərəfindən 2449 nəfərə işsizlikdən sığorta, 6331 nəfərə işsizlik müavinəti ödənilib. İşsizlik müavinəti ödənilənlər əvvəlki, yəni 2017-ci ildə həmin müavinət təyin edilmiş və müavinətin ödənişi 2018-ci ildə davam edən şəxslər olub. Bu ilin ötən dövründə isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti 1130 nəfərə işsizlikdən sığorta ödənişi təyin edib.

"Məşğulluq haqqında" Qanuna əsasən işsizlikdən sığorta ödənişi müəssisənin ləğvi və ya işçilərin (yaxud ştatların) sayının ixtisar edilməsi nəticəsində işini itirmiş və aidiyyəti rayon (şəhər) məşğulluq mərkəzində işsiz kimi qeydiyyata alınmış şəxslərə verilir. İşsizlikdən sığorta Dövlət Məşğulluq Xidmətinin rayon (şəhər) məşğulluq mərkəzlərində qeydiyyata alındıqdan sonra işsiz kimi qeydiyyata düşmək hüququ yaranan və azı 3 il sığorta stajı olan şəxslərə təyin edilir. Sığorta ödənişi işsiz şəxsin sığorta stajından asılı olaraq onun orta aylıq əmək haqqının məbləğinə faiz dərəcələri tətbiq olunmaqla hesablanır.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədov bildirir ki, "Məşğulluq haqqında" yeni qanun işsizlik sığortasını almaq hüququ olan vətəndaşların əhatəsini kəskin şəkildə məhdudlaşdırır:** "Qanuna əsasən işsizlik sığortasına yalnız o şəxslər müraciət edə bilər ki, ya iş yeri ixtisara düşmüş olsun, ya da işlədiyi müəssisə fəaliyyətini dayandırmış olsun. Bu, Azərbaycan Konstitusiyasının 35 və 38-ci maddələrinə ziddir. Qanunvericiliyə əsasən iş yerində seksual qısnamaya məruz qalan insanın ixtiyarı var ki, dərhal ərizə yazıb iş yerindən ayrılsın. Amma "Məşğulluq haqqında" Qanun imkan vermir ki, bu şəxslər işsizlik sığortası üçün müraciət etsinlər. Yaxud əmək müqaviləsinin şərtlərini pozaraq, attestasiyadan keçə bilməyən, sınaq müddətindən keçə bilməyən, əmək şəraiti dəyişdiyi üçün iş yerindən məhrum olanlar bu hüquqdan yararlana bilməzlər. Halbuki işsizlikdən sığorta haqqı istisnasız olaraq bütün işləyənlərin əmək haqqından ödənilir. Digər tərəfdən, bu gün Azərbaycanda iş yerlərinin ixtisarı faktına mində bir halda rast gələrsən. Çünki qanunvericiliyə əsasən ixtisar olunan iş yerinə görə işçiyə bir neçə aylıq əmək haqqı məbləğində ödəniş olunmalıdır. Buna görə də ötənilki məlumata əsasən işsizlik sığortası almaq üçün müraciət edənlərin sayı 4300-4400 nəfər olub. Əvvəllər işsizlik müavinəti Dövlət Sosial Müdafiə Fondunun büdcəsindən ayrılırdı. İllik məbləği haradasa 4-5 milyon manat təşkil edirdi. 2017-ci ildə 14 500 nəfərə işsizlik müavinəti verilib. Ötən il isə cəmi 2500-ə yaxın şəxsə işsizlik sığortası təyin olunub. Büdcədə 34 milyon manata yaxın idi. Bu vəsaitdən 2017-ci ildə işsizlik müavinəti təyin olunan şəxslərə də ödəniş edilib. Yəni işsizlik sığortası alan şəxslərin sayını kəskin azaltmaqla, formalaşan büdcənin mümkün qədər daha çox hissəsini özünüməşğulluq proqramına yönəldirlər. Halbuki işsizlikdən sığorta haqqı ilk növbədə iş yerini itirmiş insanların iş tapanadək təmin olunmasına sərf edilməlidir".

**Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlının sözlərinə görə, məşğulluq mərkəzləri tərəfindən müxtəlif şirkətlərə yönləndirilən insanlarla rəsmi əmək müqaviləsi deyil, mülki müqavilə imzalanır:** "Bizə bununla bağlı çoxsaylı şikayətlər daxil olur. Hələ əvvəlki nazirin dövründən belə narazılıqlar var. İnsanlarla mülki müqavilə bağlanır. 300 manat pul verirlər, buradan həm vergini, həm sosial sığorta haqqını işçi özü ödəyir. Düzdür, son vaxtlar azalıb, amma yenə narazılıqlar var. Məsələ burasındadır ki, əvvəl mülki müqavilə ilə işləyənlər üçün sosial sığorta haqqı aşağı bir məbləğ idi. İndi isə qalxıb, sentyabrın 1-dən 50 manata yaxın olacaq. Eyni zamanda əvvəl VÖİN-lə işləyən fiziki şəxslərin böyük əksəriyyəti Bakıda 4 faiz, regionlarda isə 2 faiz sadələşmiş vergi ödəyirdilər. İndi isə vergi qanunvericiliyinə edilən dəyişikliklərdən sonra onların vergi yükü də artıb. Nəticədə mülki müqavilə ilə işləyənlər aldıqları 300 manatın 100 manatını vergi və sosial sığorta haqqı olaraq dövlətə geri ödəməli olurlar. Mülki müqavilə ilə işləyənlərin əmək qanunvericiliyində nəzərdə tutulan hüquqların heç birindən yararlanmaq imkanı yoxdur. Biz müraciət edənlərin hamısına bunu izah edib, şirkətlərdən əmək müqaviləsi tələb etmələrinin gərəkdiyini deyirik".

**S.Məmmədov deyir ki, əvvəllər mülki müqavilə ilə işləyənlərin vergi və sosial ödənişləri işəgötürən tərəfindən ödənilirdi:** "2015-2016-cı illərdəki böhranla bağlı cənab prezidentin tapşırığı ilə ödənişli ictimai işlərin yaradılmasına başlanıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi belə işlərdə işləyəcək adamları seçib göndərir. Əvvəlcə belə işlərin 1 illik olması nəzərdə tutulurdu, amma hələ ki davam edir. Həmin şəxslərin bir çoxu ilə dövlət şirkətləri tərəfindən mülki müqavilə bağlanılır. Xüsusilə məşğulluq mərkəzlərindən göndərilən şəxslərin vergi-sosial sığorta haqqı şirkətlər tərəfindən ödənilir, hesabatları da onlar tərəfindən göndərilirdi. İndi isə görünür, vergi və sosial sığorta haqqı məbləği yüksək olduğu üçün işəgötürənlər bunu etmirlər. Bu isə göndərilən şəxsin aldığı pulun xeyli hissəsinin vergi və sosial sığortaya getməsinə səbəb olur. Deyim ki, əmək müqaviləsi olsa, ödəniş bundan da artıq olacaq. Sadəcə, bunun mühüm bir hissəsini işəgötürən ödəyəcək. İşçi bu zaman əmək haqqından daha çox ödəsə də, gələcəyi üçün pensiya almaq hüququ qazandığına görə ona ən sərf edən variant əmək müqaviləsidir".

**ƏƏSMN-dən məsələ ilə bağlı "Yeni Müsavat"a bildirildiyinə görə, Dövlət Məşğullluq Xidməti tərəfindən işsiz və işaxtaran vətəndaşların məşğulluğunu təmin etmək məqsədilə aktiv məşğulluq tədbirləri ildən-ilə gücləndirilir:** "Əmək bazarı proqramlarının əhatə dairəsi genişləndirilir, həmçinin bu sahədə bir sıra yeni proqram və layihələr reallaşdırılır. Nəticədə xidmətin işaxtaran və işsiz şəxslərin işlə təmin olunması sahəsində göstəriciləri də artır. Təkcə cari ilin 6 ayı ərzində Dövlət Məşğulluq Xidmətinin göndərişi ilə 54 minə yaxın şəxs münasib işlərlə təmin edilib, 700-ə yaxın şəxs peşə hazırlığı kursuna cəlb edilib. 10 min ailənin bu il özünüməşğulluq proqramı ilə əhatə edilməsi planlaşdırılır. Onlardan bu ilin 6 ayında 4 min nəfər artıq proqram üzrə təlimlərdən keçirilib, 1100 nəfərdən çox şəxsə aktivlər verilib".

**Nazirlik qeyd edir ki, vətəndaşların məşğulluq imkanlarının artırılmasında ölkə prezidentinin təşəbbüsü ilə icra olunan "İşsizin DOSTu"proqramı xüsusi rol oynayır:** "Cari ilin birinci yarımili ərzində 40 minədək işsiz və işaxtaran şəxs "İşsizin DOSTu" Proqramı çərçivəsində ödənişli ictimai işlərlə təmin olunub. Proqrama cəlb olunanların hər biri ilə əmək müqaviləsi bağlanır ki, bu da onların əmək və gələcək sosial təminat hüquqlarına əsas yaradır".

**Nazirlik Gənclər Fondu ilə birgə "Gənclərin Məşğulluğu" proqramının icrasına başlayır:** "Ali və orta-ixtisas təhsili müəssisələrinin 29 yaşına qədər olan məzunları proqram çərçivəsində işə cəlb olunacaqlar. Onlarla minimum 1 illik əmək müqaviləsi bağlanacaq və müəyyən müddətə əmək haqqının bir qismi fond tərəfindən maliyyələşdiriləcək. Proqramın icrası zamanı sosial cəhətdən həssas kateqoriyalardan (əlilliyi olan şəxslər, şəhid ailəsinin üzvləri, məcburi köçkünlər və s.) olanlara, regionlarda yaşayanlara, iş təcrübəsi olmayanlara üstünlük veriləcək".

ƏƏSMN bildirir ki, Dövlət Məşğulluq Xidmətinin yerli orqanları tərəfindən göndəriş verilən işçilərin hər biri ilə əmək müqaviləsi bağlanır, mülki müqavilə bağlanmasına yol verilmir.

S.Məmmədovun fikrincə, Azərbaycanda işsizliklə bağlı qeydiyyat prosedurları sadələşməli, bu sahədə dəqiq uçot sistemi yaradılmalıdır: "Problemin kökündə işsizlərin sayının olduğu qədər deyil, az göstərilməsi dayanır. Mən dəfələrlə hökumət qurumlarına müraciət etmişəm ki, işsizlərin sayı dəqiq göstərilməli, statistika şəffaflaşdırılmalı, ölkə rəhbərliyinə səhv məlumatlar verilməməlidir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Tikinti şirkətlərinin yol qəsdi: küçələr niyə çökür?

## Ekspert: "Qazılan yerə eyni torpağı deyil, kənardan qum gətirib tökmək lazımdır"

**Bakıda son zamanlar tikinti sahəsində xeyli aktivlik müşahidə edilir. Xüsusilə də pilot layihələr əsasında istismarı bitmiş, 2-3 mərtəbəli qəzalı tikililər sökülərək, yerlərində hündürmərtəbəli yaşayış binaları ucaldılır. Layihəyə uyğun olaraq əvvəlki binanın sakinləri tikinti şirkəti tərəfindən kirayə mənzillərə çıxarılır. Yeni bina hazır olduqdan sonra isə həmin şəxslərə oradan mənzil verilir. Verilən mənzillərin kvadratı insanların əvvəlki evlərinin ümumi sahəsindən 10 faiz artıq olduğu üçün bu layihələrə çox az adam qarşı çıxır.**











Lakin son zamanlar insanları narahat edən başqa bir məsələ var. Belə ki, binalar hazır olduqdan sonra şirkətlər yeri qazaraq, kanalizasiya xətlərini çəkirlər. Xətlər çəkildikdən sonra qazılan yer doldurulur, üzərinə asfalt örtüyü vurulur. Bir müddət sonra isə həmin asfalt çökməyə başlayır. Bakıda hazırda bir neçə yerdə oxşar hadisə baş verib.

Bəs bunun qarşısını almaq üçün nə etmək lazımdır?

**"Yeni Müsavat"a danışan Bakı Baş Tikinti İdarəsinin rəisi vəzifəsində çalışmış Əzim Məsimov bildirib ki, ilk növbədə qazılan yerdən çıxan torpaq sonradan eyni yerə doldurulmalı deyil:** "Kiyevdə bu cür halın şahidi oldum. Orada kanalizasiya borularını qoymaq üçün yeri qazmışdılar. Onun altını düzəldib, çıxardıqları torpağı isə ərazidən daşımışdılar. Öyrəndim ki, həmin yerə başqa yerdən gətirilən qum tökəcəklər. Doğrudan da qazılan torpağı yenidən borunun üzərinə tökmək olmaz. Çünki nə qədər istəsən, həmin torpaqda lazımi sıxlığı almaq olmur. Ona görə də həmin yerə su töküldükcə, çökmə baş verir. Bu səbəbdən də belə qazılan yerə qum tökülür. O zaman da bizdə indiki kimi işləyirdilər. Bakı Baş Tikinti İdarəsinə təyin olunduqdan sonra Bakıda bu cür halların qarşısını almaq qərarına gəldim. SSRİ hökumətinin İttifaq Balıq Nəzarət İdarəsinin rəisini bura dəvət etdim. Burada Balıq Nəzarəti İdarəsindən bir gəmi götürüb, dənizdən bir ada seçdik. Deyim ki, Xəzər dənizində çoxlu qum adaları mövcuddur. O adaların birindən qum götürmək qərarına gəldik. Bunun üçün də port tikilməli idi ki, gəmilər ora yan ala bilsin. Qərarımla port da tikildi. Gəmi də tapdıqdan sonra oradan Zığa qum daşındı. Sonra da portu bizim Baş Yol Tikinti Trestinə verdim. Hazırda isə həmin portun kimin tərəfindən özəlləşdirilməsi barədə məlumatlı deyiləm".

**Ekspert bildirib ki, əslində şirkətlərin bilmədən atdıqları bu cür addımlar böyük məsrəflərə səbəb olur:** "Çünki çökdükcə gərək yenidən qum töküb, asfalt basasan. Bu isə əlavə pul itkisidir. Eyni zamanda belə hallar davamlı olaraq yaşanır. Bu gün sanki hər kəs istəyir ki, tez bir zamanda pul qazansın. Ona görə də işi görən zaman araşdırma etmirlər. İşin texnologiyasına yiyələnməyib, detalların fərqinə varmırlar. Nəticədə də bu cür hallar baş verir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# "Nar"ın sürətli 4G şəbəkəsi artıq Qobustan və Xızıda!




**Ölkə əhalisini yüksəkkeyfiyyətli 4G şəbəkəsi ilə təmin edən "Nar" 4G texnologiyalı baza stansiyalarının sayını artırmaqda davam edir. Mobil operatorun quraşdırdığı LTE baza stansiyaları sayəsində artıq Qobustan və Xızı sakinləri də 4G şəbəkəsi ilə təmin olunub. Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq 55-ə yaxın rayon 4G baza stansiyası ilə təmin edilib. Belə ki, "Nar" son 3 ayda 600-dən çox 4G texnologiyalı, 40-a yaxın isə 3G texnologiyalı baza stansiyası quraşdırıb. Bununla da, "Nar"-ın 4G baza stansiyalarının sayı 2300-ü, 3G baza stansiyalarının sayı isə 2700-ü ötüb.**

**"Nar" 4G şəbəkəsini Bakı və Abşeron yarımadası ərazisi ilə yanaşı, regionlarda, şəhər və rayon mərkəzlərində də artırır. "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir. Qeyd edək ki, mobil operatorun 4G istifadəçilərinin 72%-i paytaxt Bakının, 28%-i isə regionların payına düşür. Hazırda ölkə əhalisinin 97.6%, ölkə ərazisinin isə 83,6%-i (işğal olunmuş ərazilər istisna olmaqla) "Nar"-ın sürətli internetindən yararlana bilir. Mobil operator 8100-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçini yüksək sürətli internetlə təmin edir.**

**Qeyd edək ki, mobil operator ölkə boyu yeni baza stansiyaları quraşdırmaqla yanaşı, əvvəl quraşdırdığı baza stansiyalarını daim yeniləyir. Bundan başqa, "Nar" baza stansiyalarının şəbəkə tutumunu da genişləndirir.**

**Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib.**

YENİ MÜSAVAT



go

# 2.5 ay fasilə ilə əkizlərini dünyaya gətirdi

Qazaxıstanın Uralsk şəhər sakini, 29 yaşlı Liliya Konovalova 2.5 ay fasilə ilə əkizlərini dünyaya gətirib. Onlardan biri qız, digəri oğlan olub. Qız perinetal mərkəzdə, 26 həftəlik dünyaya gəlib. Ondan iki ay 16 gün sonra isə onun balaca qardaşı doğulub. Qız dünyaya gələndə onun çəkisi 850 qram, uzunluğu isə 42 santimetr olub. Oğlan isə 50 santimetr, 2.9 kilo olub.



Tibb tarixində olduqca nadir hadisə kimi bilinən bu olay anatomik pozğunluğun əlamətidir. Buna səbəb isə qadının ikili bətninin (uterus duplex) olmasıdır. Qazaxıstan Səhiyyə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, ikili bətndə yaşayan uşaqların yaşama şansı 50 milyonda birdir. Budəfəki olayda isə Perinetal Mərkəzin peşəkarlığı ana və uşaqlarının sağ qalması ilə nəticələnib.

13 avqustda xəbər verildi ki, Böyük Britaniyanın Meduey şəhər sakini Monika Dilan kruiz zamanı bir kişi ilə bir gecə keçirib. Ondan sonra onun əkizləri dünyaya gəlib. 41 yaşında ana olan qadına həkimlər daha öncə ana olmasının qeyri-mümkünlüyünü bildirmişdi.



# Uşağı diri-diri basdırdılar, it onu tapdı

Taylandın Nakhon Ratçasima bölgəsində it çölün ortasında diri-diri basdırılan yeni doğulmuş körpə tapıb. Bu barədə Britaniyanın "Daily Mail" nəşri xəbər verib. Xəbər verilir ki, mayın 15-də 41 yaşlı Uza Nizayka iti ilə birgə fermer sahəsində gəzintiyə çıxıb. Gəzinti zamanı Pinq Ponq ləqəbli it qəfildən hürməyə və yeri eşməyə başlayıb. Sahibi yaxınlaşaraq itin nəyə hürməsi ilə maraqlanıb. Bu zaman eşilən torpağın altında bir uşaq ayağının tərpəndiyini görüb. O, sürətli şəkildə yeri qazıb və uşağı oradan çıxararaq xəstəxanaya aparıb.

Nəşrin xəbərinə görə, hazırda körpənin səhhətinə heç bir təhlükə yoxdur. Polis uşağın anasını da müəyyən edib. Bu, 15 yaşlı kənd sakini olub. O, etiraf edib ki, hamiləliyini gizlədirmiş. Ona görə də yenicə doğduğu uşağını hər kəsdən və özəlliklə valideynlərindən saxlamaq üçün gizlətmək qərarına gəlib. Qeyd edilir ki, qızın valideynlərinin körpəni xəstəxanadan çıxarmaq və onun böyüdülməsi ilə məşğul olmaq fikirləri var. Yerli əhali isə itin həssaslığından şoka girib və onu qəhrəman adlandırırlar. Pinq Ponq adlı it hər zaman sadiq və sözəbaxan olub.

Mart ayında isə xəbər verilmişdi ki, Amerikada bir it öz sahibinə qonşu evdəki yanğın barədə xəbərdarlıq edib. Nəticədə yerli sakinlərdən heç kim ziyan çəkməyib.

# Stress atadan oğula ötürülürmüş



İsveçrəli alimlərin apardıqları araşdırmalar nəticəsində məlum olub ki, stress atadan oğula genetik yolla ötürülür. Zurih Universitetində çalışan professor İzabella Mansuy və qrupu bu qənaətə gəlmək üçün siçanlar üzərində araşdırma aparıblar. Onlar yeni doğulmuş siçanları uzun müddət analarından uzaqda saxlayaraq onların əsəbi olmasına şərait yaradıblar. Stress altında saxlanılan siçanlardan törəyən yeni nəsil dünyaya gəldikləri zaman onların da əsəbi olduqları məlum olub. Hətta 3-cü nəsildə də stress izlərinə rast gəlmək mümkün olub. Alimlərə görə, travmaya məruz qalan siçanlar genetik yolla öz hisslərini balalarına ötürür. Onların fikrincə, bu göstərici insanlar üçün də eynidir. Atalar çox əsəbi olduqları zaman oğullarda da əsəbilik hiss edilir.



# Hər il milyonlarla insan hərəkətsizlikdən ölür

Dünya Səhiyyə Təşkilatının yaydığı hesabata görə, hər il 3,5 milyon insan hərəkətsizlikdən ölür. Bu hesabatdan sonra səhiyyə təşkilatı bəyan edib ki, dünyada hərəkət etməmək üzündən bir çox xəstəliklər artıb. Xərçəng, infakt, damarların tıxanması və s. kimi xəstəliklərin artmasından narahatlıq keçirən təşkilat ən azından hər həftə uşaqların 60, yetkin insanlarınsa 150 dəqiqə aktiv idmanla məşğul olmasını vacib sayıb.

# Bunları bilirsinizmi?

* Çox möhkəm asqıranda, qabırğalardan biri qırıla bilər.

* Asqırmağın qarşısını almaq boyunda damarın zədələnməsinə səbəb ola bilər.

* Donuzlar heç vaxt başlarını yuxarı qaldıra bilmir.

* Dünya əhalisinin demək olar ki, 50 faizi telefondan istifadə etmir.

* 1 saat qulaqcıqdan istifadə qulaqdakı mikrobların sayını 700 faiz artırır.

* Barmaq izləri kimi hər insanın özünəməxsus dil izi də var.

* Betxoven son əsərini kar halda bəstələyib.

* Eyfel qülləsinin hazırlanmasında 6400 ton ağırlığında 18.100 ədəd dəmir parçasından istifadə edilib.

* İnsan orqanizmindəki bütün damarların uzunluğu 15 min km-dir.

* Bir futbolçu topa hər dəfə başı ilə vuranda, beynində min hüceyrə ölür.

* İnsanın başında orta hesabla 30.000-100.000 ədəd saç var. Hər gün onlardan 100-ü tökülür.

* Amerikalıların 60 faizi ölkələrini xəritədə tapa bilmir.

* Dünyadakı kişilərin 10, qadınların isə 8 faizi solaxaydır.

* Qədim Çində valideynlərin ad günündə verilən ən yaxşı hədiyyə tabut hesab olunurdu.

* Günəş sisteminə daxil olan bütün planetləri bir tək Yupiterin içinə sığdırmaq mümkündür.

* Britaniya kraliçasının imperiya tacında düz 1783 brilyant qaş düzülüb. Onların arasında ən məşhuru 309 karatlıq "Afrika ulduzu"dur.

* Heç bir kağız vərəqini yeddi dəfədən artıq bərabər qatlamaq mümkün deyil.

* Kişilər qadınlara nisbətən üç dəfə çox intihar edirlər. Ancaq qadınlar kişilərdən üç dəfə artıq intihar cəhdi edirlər.

* Dünyada ən çox poçt şöbəsi olan ölkə Hindistandır. Orada 152 792 poçt şöbəsi fəaliyyət göstərir.

* 1950-ci ildə Çində orta insan ömrü 35 il olduğu halda, 2000-ci ildə bu rəqəm 70-ə çatıb.

* 39-cu ABŞ prezidenti Cimmi Karter dəqiqədə 2000 söz sürətlə oxumağı bacarırmış.

# Fasiləsiz öskürək xərçəng xəstəliyinin carçısı oldu

Britaniyalı Trevor Vokerin davam edən öskürəyinin xərçəng səbəbindən yarandığı bəlli olub. Bu barədə "Daily Mirror" nəşri xəbər verib. 56 yaşlı Voker üç uşaq atasıdır və iki ay ərzində davamlı öskürəkdən əziyyət çəkirdi. Ailəsi düşünüb ki, o, döş qəfəsinin infeksiyasına yaxalanıb və buna görə də ona xəstəxanaya getməyi məsləhət görüblər. Həkimə gedərək, analizlərini verən kişidə bağırsağın ölümcül xərçəngi aşkarlanıb. Sonradan məlum olub ki, bu şiş sürətli şəkildə digər orqanlara da yayılıb. Həkimlərin proqnozuna görə, xəstənin cəmi üç həftə ömrü qalıb. Britaniyalı kişi ömrünün son günlərini xəstəxanada, əzizlərinin və doğmalarının əhatəsində keçirib.



Vokerin durumu sürətlə pisləşib və 16 gündən sonra ölüb. Arvadı bildirib ki, sürətlə irəliləyən xəstəlik nəticəsində kişi bir dəri-bir sümük qalıb. Mendi qeyd edib ki, zəifləməsinin və öskürəyinin xaricində onda xəstəliyin heç bir əlaməti olmayıb. "O, çox sağlam və idman görünüşlü kişi idi. 30 il bundan əvvəl siqareti tərgidib. Eyni zamanda içməyi tərgidib və düzgün qidalanmağa çalışırdı".

Mendi ərinin xəstəlik hekayəsini qarşısına çıxan hər kəsə danışıb. Burada məqsəd ətrafdakıları da belə hallara qarşı xəbərdarlıq etmək idi. Uzun müddət davam edən öskürəyin xərçəng xəstəliyinin əlaməti olma ehtimalı da bura daxil idi.

Daha öncə xəbər verilmişdi ki, İngiltərə sakini beyin xərçənginin əlamətlərini xroniki yorğunluq kimi qəbul edir. Amma qadında beyin şişi aşkarlanıb və bundan sonra iki əməliyyat, 30 şüa terapiyası kursu keçib və indi də kimyəvi müalicə kursu keçir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050